www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 yanvar 2016-cı il Çərşənbə axşamı № 13 (6334) Qiyməti 60 qəpik

**Xəbər**

## Büdcə təşkilatlarında çalışanların maaşları artırıldı

yazısı səh.2-də

**Gündəm**

### Prezidentdən fövqəladə bəyanatlar - Davosa hazır proqramla...



Dövlət başçısı İlham Əliyev son bir həftədə nazirlərlə ikinci toplantı keçirərək mühüm açıqlamalar verdi: böyük özəlləşdirmə başlayır...

yazısı səh.4-də

### Tehran-Qərb anlaşması: qalib kim, uduzan kim?

yazısı səh.9-da

### Müxalifətdən "üsyankar səfir"in çağırışına cavab gəldi

yazısı səh.12-də

### Sabah 20 Yanvar faciəsinin 26-cı ildönümüdür

yazısı səh.4-də

### "Bank of Azerbaijan"ın lisenziyası ləğv edildi

yazısı səh.2-də

*Mirvari Qəhrəmanlı:*

### "Həlak olan neftçilərin ailələrinə dəstək artırılmalıdır"

yazısı səh.4-də

### Ev bazarında qiymətlər kəskin şəkildə enir...

yazısı səh.7-də

### Dünyanın gözü Davosda; Forumun iqtisadi əhəmiyyəti nədir?

yazısı səh.8-də

*Hafiz Hacıyev:*

### "Bölgələrdə ailələri acdır; hanı açılan iş yerləri?.."

yazısı səh.12-də

### Bakıda xəstə özünü xəstəxananın beşinci mərtəbəsindən atdı

yazısı səh.14-də

### Dollarla aparılan əməliyyatlar yasaqlana bilərmi...

yazısı səh.14-də

### "İpoteka krediti" fırıldağı - banklar qanunsuz müqavilələr bağlayır...

yazısı səh.15-də

## Gömrükdə inqilabi islahatlara qarşı kimlər çıxır?

# OLİQARXLAR PREZİDENTİN QƏRARINI SABOTAJ EDİR

Gömrük Komitəsinin sədri brokerlərin fəaliyyətinin "qeyri-qanuni" elan olunmasını niyə mümkünsüz hesab edir?; böyük kapitala malik, daxildəki mal dövriyyəsinin əhəmiyyətli hissəsini əlində cəmləşdirən oliqarxlar asanlıqla təslim olmaq istəmirlər; bəziləri illərdir hədsiz varlanmalarına səbəb olan iqtidarın ayağının altını qazırlar...




yazısı səh.7-də

## Tiflisin Bakıya qaz şantajına ABŞ-dan dəstək - şok gəlişmə

Vaşinqton SOCAR-ın "Qazprom"la sıxışdırılmasını təqdir etdi; İran-Amerika münasibətlərinin ılıqlaşmağa üz tutması və Konqresdə Azərbaycan əleyhinə sənədin müzakirəsi ərəfəsində belə bir gediş təsadüfdürmü?..

yazısı səh.5-də



*Vahid Əhmədov:*

### "Dollar kreditlərinin 1,05-lik məzənnə ilə qaytarılmasını razılaşdırmışıq"

yazısı səh.7-də



*Pənah Hüseyn:*

### "Böhran müxalifətə işləyir"

yazısı səh.6-da



*Natiq Miri:*

### "Sosial etirazları hələlik hansısa xarici qüvvələrə bağlamaq şişirtmə olardı, lakin..."

yazısı səh.6-da

# Dövlət büdcəsində çalışanların maaşları artırıldı

## Müəllimlərin, səhiyyə, elm işçilərinin, DİN əməkdaşlarının, sosial təminat, mədəniyyət, gənclər və idman müəssisələrində çalışanların məvacibləri 10 faiz qaldırıldı



**Prezident İlham Əliyev səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, dövlət büdcəsindən maliyyələşdirilən səhiyyə müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.**

Dövlət başçısının imzaladığı digər sərəncamla təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması ilə bağlı olub. Sərəncama əsasən, dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezidentin sərəncamı ilə DİN-in xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə nazirliyin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Həmçinin ölkə başçısının başqa bir sərəncamı ilə sosial təminat müəssisələrində çalışan işçilərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə dövlət büdcəsindən maliyyələşdirilən sosial təminat müəssisələrində çalışan işçilərin aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Bundan başqa, dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

Habelə dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisə, idarə və təşkilatlarında çalışan işçilərin aylıq vəzifə maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.

# Cəlilabad və Astarada etiraz aksiyaları keçirilməsinə dair rəsmi açıqlama verildi

**Yanvarın 18-də Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin (ƏƏSMN) Cəlilabad rayon şöbəsində vətəndaşların ünvanlı sosial yardım almaları məqsədilə fərdi qaydada ərizələrinin qəbulu keçirilib.**

APA-nın cənub bürosunun məlumatına görə, qəbulda rayonun 35 ərazi vahidliyindən sakinlər iştirak edib. Nəticədə sıxlıq yaranıb, bəzi vətəndaşlar qəbulun gedişindən narazı qalıblar. Bununla yanaşı, sakinlər süni bahalaşmağa etiraz edib, banklara olan kredit borclarını ödəyə bilməmələrindən də şikayət ediblər.

Cəlilabad RİH-dən APA-nın cənub bürosuna bildirilib ki, ƏƏSMN-in rayon şöbəsində sakinlərdən ərizələrin qəbulu elektron qaydada keçirilməli olduğu halda, hazırlıq işlərinin başa çatdırılmaması səbəbindən bu iş baş tutmayıb. Ona görə də rayonun 35 ərazi vahidliyindən vətəndaşların eyni gündə şöbəyə müraciət etməsi problem yaradıb.

**O da bildirilib ki, RİH rəhbərliyi demək olar ki, hər gün vətəndaşların qəbulu və onların problemlərinin həlli ilə məşğuldur:** "Elə sözügedən məsələ ilə də bağlı rayon rəhbərliyi əhali ilə görüşərək onların narahatlığına heç bir əsasın olmadığını, müraciətlərinin araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib".

"Astara rayonunda tam sabitlik hökm sürür, heç bir aksiya keçirilməyib. Camaat öz cari iş-gücü ilə məşğuldur". Bunu isə APA-nın cənub bürosuna Astara RİH başçısının birinci müavini Allahverən Mahmudov deyib.

**Onun sözlərinə görə, rayonun Şahağacı kəndində baş vermiş hadisə bank fırıldaqçılığı ilə bağlı olub:** "Altı ay öncə həmin kəndin sakinləri Ceyhun Əhədov və Nahid Rəhimov "Republika Bank"ın Astara filialının işçisi Vüqar Yusifovla birləşərək öz həmyerlilərinin etibarından sui-istifadə etməklə 30-a yaxın şəxsin adından kredit götürüb mənimsəyiblər. Sonradan sakinlərin şikayətləri əsasında həmin şəxslər barəsində cinayət işi açılıb, C. Əhədovla N. Rəhimov həbs olunub. V. Yusifov isə respublikadan qaçıb".

**A.Mahmudovun sözlərinə görə, bu məsələ ilə bağlı bu gün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqi Şahağacı kəndinə gəlib:** "Hazırda müstəntiq ərazi icra vahidliyinin binasında adlarına kredit götürülmüş şəxsləri qəbul edir, izahatlarını alır".

Qeyd edək ki, dünən xəbər saytlarında Cəlilabad və Astarada aksiyalar keçirilməsinə dair xəbərlər yayılmışdı.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Azay Quliyev seçiciləri ilə növbəti görüşünü keçirdi





**Yanvarın 18-də millət vəkili Azay Quliyev YAP Binəqədi rayon təşkilatının binasında seçiciləri ilə növbəti görüşünü keçirib.**

Millət vəkili seçicilərin məşğulluq, təhsil, kredit, əfv, sahibkarlıq məsələləri və müxtəlif dövlət qurumları ilə bağlı müraciətlərini dinləyib və onların həlli istiqamətində müvafiq qərarlar qəbul edib.

Görüşdə Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər.

# Sabiq deputatlar maaşlarının gecikdirilməsini təsdiqlədilər

**Ötən gün Milli Məclisin sabiq deputatlarının maaşlarını ala bilməməsi ilə bağlı məlumat vermişdik. Məlumatda qeyd edilirdi ki, parlamentin səlahiyyət müddəti bitmiş çağırışının təkrar seçilməyən üzvləri, onlar üçün nəzərdə tutulan maaşı (deputat maaşının 80%-i) ala bilmirlər. Sabiq deputatlar sonuncu dəfə noyabr ayının 12-sinə qədər olan maaşları alıblar.**

Bu məlumatı dəqiqləşdirmək üçün sabiq deputatlardan bir neçəsi ilə əlaqə saxladıq.

**Sabiq millət vəkili, VHP sədri Sabir Rüstəmxanlı** son iki ayda maaşların verilməməsini təsdiqlədi: "Mən bir neçə gündür ki, Bakıda deyiləm. Yanvar ayının 9-da Bakıdan ayrılmışam. O vaxta qədər maaşlar köçürülməmişdi. Biz bunu maaş deyil, təqaüd kimi alırıq. Ola bilər ki, son günlər pullar hesaba köçürülüb, lakin mənim məlumatım yoxdur". Sabiq deputat, Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, o, ümumiyyətlə, Milli Məclisdən maaş almır: "Əmək haqqı ilə bağlı müraciət etməyib. Əmək haqqı almaq üçün gərək işsizlik idarəsində qeydiyyata durub, müəyyən prosedurlardan keçəsən. Mən bunun üçün müraciət etməmişəm. Ona görə də əmək haqqının verilib verilməməsindən xəbərim yoxdur".

Hazırda Milli Məclisdə təmsil olunan deputatların əməkhaqlarına gəlincə, onlar maaşlarını vaxtında aldıqlarını bildirdilər.

Vahid Əhmədov artıq maaşını aldığını və bununla bağlı hər hansı problem yaşamadığını bildirdi. Fərəc Quliyev və Fazil Mustafa da hər ay əməkhaqlarının vaxtında maaş kartına köçürüldüyünü bildirdilər.

❑ **Nərgiz LİFTİYEVA**



# Bakıda "qara bazar"ın qarşısını almaq mümkün olmur

## Dollar Mərkəzi Bankın müəyyən etdiyi məzənnədən baha satılır

**Yanvarın 13-dən etibarən Mərkəzi Bankın qərarı ilə "exchange"lər bağlanıb. Qərarın tətbiqindən sonra "Qara bazar" daha da fəallaşdı, dollar müəyyən olunan məzənnədən daha baha satılmağa başladı. Musavat.com-un əməkdaşı valyuta bazarında son durumu öyrənmək üçün "28 May" metro stansiyası ətrafındakı "Qara bazar"a baş çəkib.**

Dolların qıtlığından istifadə edən işbazlar şəhərin müxtəlif küçələrində, tinlərində, piştaxtalarda gizli şəkildə dollar satışını davam etdirir.

Müşahidə apardığımız zaman da şahidi olduq ki, şübhə çəkməmək məqsədi ilə əllərində lotereya biletləri ilə gəzərək süni şəkildə prosesi həyata keçirməyə nail olurlar.

Əvvəllər "28 May" metro stansiyanın qarşısında toplaşan dollar alverçiləri indi gözə dəymir. Ətrafda olan şəxslərdən "Qara bazar" işbazlarının metronun arxa tərəfinə yığışdıqlarını öyrənirik.

Burada 10-a yaxın alverçi və bir neçə müştəri ilə rastlaşırıq. "Qara bazar"da dollar alqı-satqısı ehtiyatlı və sakit şəkildə həyata keçirilir. İşbazlar hər yoldan keçən müştəriyə dollar satıram və ya alıram deməyə ehtiyat edirlər.

Bazarda apardığımız müşahidə zamanı dolların alışı və satışının müxtəlif qiymətlərə təklif olunduğunu öyrəndik. Burada dolların satışı 1.66-1.72 arasında dəyişir. Müştəri qismində yaxınlaşıb dollar almaq istədiyimizi bildirdik.

Rizvan adlı şəxs dolların alışının 1.63 AZN, satışının isə 1.66 AZN olduğunu dedi.

**Satıcı vəziyyəti belə izah etdi:** " Mərkəzi Bank məzənnəni 1 dollar=1.57 AZN müəyyənləşdirib və qara bazarda 4 faiz əlavə edilərək satılmağına qərar verib. Lakin 4 faizlə işləmək bizə sərf eləmir. Bu səbəbdən riskə gedib daha baha satmağa məcbur oluruq. Banklarda dollar satılmır. Dollar satışında məhdudiyyətlər var. Bu səbəbdən də əhali "Qara bazar"a üz tutur. Bu yaxınlarda dollar satışı ilə məşğul olan 4 nəfəri tutdular. Lakin bilmirlər ki, çörək pulumuzu bu yolla çıxarırıq. Mən razılaşıram ki, süni şəkildə dolları yüksək qiymətlərə satanlar cəzalandırılsın. Qanunla 1 dolları 1.64 manata satmalıyıq. Biz isə 1.66 AZN-ə təklif edirik, bahadır deyənlərə 1.65 manatdan da satırıq. Cəmi 3-4 qəpiyə görə bizi həbs etməsinlər".

Xatırladaq ki, Mərkəzi Bank yanvarın18-i üçün dolların məzənnəsini 1dollar=1.587 AZN müəyyənləşdirib.

❑ **Məğrur MƏRD**

# Milli Məclis bu gün əhalini sevindirə bilər

**Yanvarın 19-da Milli Məclisin növbədənkənar sessiyası keçiriləcək. Parlamentin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu "Yeni Musavat"a açıqlamasında iclasın gündəliyinə 7 məsələnin daxil edildiyini bildirib.**

Bunlar "Əmanətlərin sığortalanması haqqında, Əmanətlərin tam sığortalanması haqqında, Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında, Valyuta tənzimi haqqında və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərin edilməsi, "Satınalmalar haqqında" və "Gömrük tarifi haqqında" qanuna dəyişikliklər layihəsidir.

Aldığımız məlumata görə, Milli Məclisdəki müzakirələrdə 10 min manatadək sığortalanan əmanətçilərə qoyulan limitin aradan qaldırılacağı gözlənilir. Bu, əhalinin banklara inamının artırılması və banklardan valyuta axınının qarşısını almaq üçün düşünülüb. Eyni zamanda dollarla götürülmüş kreditlərin 21 dekabr 2015-ci ilədək olan məzənnə - 1.05 AZN-lə ödənilməsi barədə təşəbbüslərin qaldırılacağı və müvafiq qərarın veriləcəyi barədə də məlumatlar var.

❑ **ELŞAD**

# Bu gün əlil məhkumun məhkəməsidir

**Bu gün Xəzər Rayon Məhkəməsində hakim Samir Mayılovun sədrliyi ilə əlil məhkum Rauf Sultanovun işi üzrə proses keçiriləcək. Hazırda Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılan əlil-məhkumun işi üzrə artıq bir neçə dəfə məhkəmələrdə baxış keçirilib. Sonuncu dəfə Bakı Apelyasiya Məhkəməsinin hakimi Vüqar Məmmədov iş üzər araşdırma aparıb. Bir daha təsdiqlənib ki, R.Sultanovun ittiham olunmasına əsas verən sənədlərin saxtalaşdırıldığı üzə çıxıb. Buna görə də iş üzrə qəbul olunmuş qərar ləğv olunub və Rauf Sultanovun barəsindəki cinayət işi yenidən araşdırılması haqda qərar verilib. Məlum olub ki, cinayət işinin materiallarında, istintaq protokollarında R.Sultanovun imzası saxtalaşdırılıb. Onun dələduzluqda ittiham edilməsi üçün əsaslar yaradılıb.**

R.Sultanovun həbsdən azad edilməsi üçün əlil valideynləri, ABŞ vətəndaşı olan bacısı, onun həyat yoldaşı ölkə başçısına, Mehriban Əliyevaya, baş prokurora müraciət ediblər. Onlar məhkəmənin ədalətli qərar verəcəyinə ümid edirlər.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**24 yanvarda saat 14.00-da ADP qərargahında müxalifətin böyük toplantısının keçiriləcəyinə hazırlıq getdiyi xəbərlərində təşəbbüsçülər sırasında AXP sədri Pənah Hüseynin də adı çəkilir. Bununla əlaqədar Pənaha Hüseynə müraciət edib məsələyə aydınlıq gətirməsini xahiş etdik.**

# Pənah Hüseyn partiya liderləri ilə danışıqlar aparır

## "Gənclərin qabağa çıxmaları zamanı gəlib çatıb, imkan yaratmaq lazımdır lider kimi özlərini sınasınlar"

**Pənah Hüseyn** bildirdi ki, belə təşəbbüslər müxtəlif şəxslər tərəfindən səsləndirilir və ona da bu barədə müraciət edilib və rəyi öyrənilib. Həmçinin istənilib ki, təklifin reallaşmasında iştirak etsin: "Niyyət mənə faydalı görünüb və həmin tədbirin hazırlanmasına qatılmışam. Mənim informasiyama və təsəvvürümə görə 24 yanvar tədbiri müxalifətin, xüsusən böyük toplantısı kimi yox, ictimai siyasi xadimlərin, ekspertlərin, hətta maraq göstərən hər bir vətəndaşın tədbiri olması, bir növ yaranmış vəziyyət və çıxış yolları mövzusunda ictimai dinləmələr şəklində alınması daha gözləniləndir. Siyasi düşərgədə vəziyyət elədir ki, ölkədə dramatik situasiya yaranmasına, yerlərdə iqtisadi-sosial böhranla bağlı spontan etiraz aksiyalarının başlanmasına baxmayaraq, mövcud müxalifət liderlərinin bir araya gələrək müzakirələr keçirmək, birgə qərarlar qəbul etmək üçün toplantı keçirməyə həvəsli olmaları görünmür. Mən şəxsi münasibət imkanlarından istifadə edərək bəzi siyasətçilərlə fikir mübadiləsi aparmışam. Bu gün vəziyyət belədir. Bəlkə sabah başqa cür olacaq. Odur ki, toplantı təşəbbüsçüləri ilə söhbətlərdə də demişəm ki, mümkün olanı reallaşdırmağa çalışmaq lazımdır. Yoxsa ictimai rəydə böyük gözləntilər yaradıb, sonra da tədbirisi müxalifətlə təmasların qurulması üçün heyətin seçilib formalaşdırılması, xalq hərəkatının təsis olunması və ya bunun üçün təşəbbüs qrupuliderlər, partiyalar boykot etdi tipli kimi manşetlərə səbəb olmağa ehtiyac yoxdur".

**AXP sədri dedi ki, 24 yanvar tədbiri bu və ya digər formatda yəqin ki, baş tutacaq və iştirakçı tərkibindən asılı olmayaraq faydalı olacaq. Tədbirə yönəlik maraqlı təkliflər də var:** "Daimi fəaliyyət göstərən böhran masası funksiyalı dəyirmi masanın yaradılması, iqtidarla və siyasi müxalifətlə təmasların qurulması üçün heyətin seçilib formalaşdırılması, xalq hərəkatının təsis olunması və ya bunun üçün təşəbbüs qrupunun yaradılması, ictimaiyyətin tələblərinin ümumiləşdirilib hakimiyyət qarşısında irəli sürülməsi məsələlərinin müzakirəyə çıxarılması kimi təklifləri göstərmək olar".

P.Hüseynin tədbirin vaxtı dəyişdirilə bilərmi sualına cavabı belə oldu ki, şəxsən onun üçün bu gün tədbirin vaxtının dəyişdirilməsi üçün bir səbəb yoxdur. Ancaq sabah belə bir səbəb yaranarsa və ehtiyac olarsa, ya təklif gələrsə etiraz da etməz.



**Tədbir baş tutacağı halda aparıcının kim ola biləcəyinə gəldikdə, P.Hüseyn bildirdi ki, bu, iştirakçıların tərkibindən asılı olan məsələdir:** "Tutaq ki, əgər iştirak edərlərsə məsələn, Sabir Rüstəmxanlı, professor Firudin Cəlilov, Mehman Əliyev, Natiq Cəfərli, Ərəstun Oruclu kimi şəxslər sədrlik, aparıcılıq edə bilərlər. Elə də ola bilər ki, bu gün geniş ictimaiyyətin tanımadığı gənc fəallar moderator olsunlar. Gənclərin qabağa çıxmaları zamanı gəlib çatıb, imkan yaratmaq lazımdır ki, lider kimi özlərini sınasınlar".

❑ **Etibar SEYİDAĞA**

# "Binə" Ticarət Mərkəzində dükanlar bağlandı

## Sahibkarlar icarə haqqının və gömrük rüsumlarının qaldırılmasına etiraz edirlər

**Bakının ən böyük ticarət mərkəzlərindən biri olan "Binə"də çalışan sahibkarlar çarəsiz durumda qalıblar. Onlar böhran vəziyyətində alver edə bilmədikləri üçün nə icarə haqlarını verə bilirlər, nə də mal ala bilirlər. Bütün bunlardan təngə gələn tacirlər yanvarın 18-də dükanlarını bağlayaraq, etiraz ediblər.**

Musavat.com saytının reportyoruna danışan sahibkarlar etirazlarının yaranmasının bir neçə səbəbi olduğunu bildiriblər: "Dinc etirazımızın səbəbi ilk olaraq icarə haqqı ilə bağlıdır. Son 1 ildə iki dəfə devalvasiya olub. Onsuz da alıcı qıtlığı çəkən bazar daha da pis günə qalıb. Mallarımız dükanda tozlanır. Alver "ölüb". Amma icarə haqları aşağı enmir. İnsaf deyilən şey bunlarda yoxdur.

Dükan sahibləri vəziyyəti başa düşürlər, pul almırlar. Amma bunlar... Məsələn, mən icarədaram. Dükan sahibi başqasıdır və buranı mənə icarəyə verib. Başa düşür ki, hazırda alver yoxdur. Mənə güzəşt edir və icarə haqqı almır. Amma bazarın hər dükandan aldığı 1050-1200 manat pulu biz ödəməli oluruq. Bazar rəhbərliyi bizə güzəşt etmir".





**Sahibkarların digər narazılığı da Gömrük Komitəsindəndir:** "Elə hal yaranıb ki, az qala, "rüşvəti geri qaytarın" deyəcəyik. Çünki gömrükdə 36 faiz rüsum tələb edilir. Bu da gətirdiyimiz malın qiymətini daha da bahalaşdırır. Mallar əsasən ya kuba, ya da çəkiyə görə qiymətləndirilir. Əvvəl Çindən gələn malın 1 kubuna görə 300 dollar verirdik. İndi 900 dollar olub. Yəni ki, 3 manata olan Çin məhsulunun bizə gəlişi 9 manata başa gəlir. Biz də onu minimum 10 manata satmalıyıq. 3 manata olan malın elə bir keyfiyyəti yoxdur ki, onu 10 manata satmaq mümkün olsun. Bu da bir tərəfdən ziyan vurur. Onsuz da alıcı yoxdur, belə olanda vəziyyət daha da pisləşib.

İrandan gəlib, burdan mal alanlar var idi. Onlardan da vergi tutulur. Əvvəl hər malın kilosuna görə 2 manat idi. İndi bu qiymət 9 manat olub. Çox gülməlidir. İstehsalçı deyilik. Başqa ölkədən gəlib, bizdən mal alanlara daha çox şərait yaratmaqdansa, bunlar buna mane olurlar. Elə bil ki, həyətdə inək saxlayıb, süd satırsan. Səndən pul verib, süd alan adam qapından çıxanda ondan 2 manat daha alırsan. Çünki sənin qapından çıxır. Bu da onun kimi bir şeydir".

Sahibkarların şikayətlərin nəzərə alaraq, ticarət mərkəzinin rəhbərliyi ilə görüşməyə cəhd etdik. Bizi "Binə" Ticarət Mərkəzinin müdirəsi Kəbirə Məmmədovanın müavini Dilşad Əmirovanın yanına apardılar. Amma deyəsən, hərbi hissəyə, gizli bir əraziyə daxil olurduq. Çünki kameramızı, telefonumuzu alıb, içəri buraxdılar. Bizi oturduğu yerdə qarşılayan Dilşad Əmirovanın ilk sözü "Müsahibə verməyəcəm" oldu.

*- **Onsuz da müsahibə üçün vacib olan bütün resursları əlimizdən aldınız. Gəlişimizin səbəbi sahibkarların dükan bağlama aksiyalarıdır. Onların etirazlarına iki səbəb var...***

- Bəli, onların etirazı karqoya görədir. Qiymətlər bahalaşıb.

*- **Onların etirazlarının digər səbəbi də icarə haqlarıdır. Böhran dövründə heç bir güzəştin edilməməsi narazılığa səbəb olub...***

- Xoş getdiniz. Sizə yaxşı yol. Jurnalistləri yola salın (otaqdakı digər şəxslərə müraciət edir - red).

Beləcə, D.Əmirova bizim suallarımıza cavab vermədi.

Əgər deyilənlər yalandırsa, bunu etməyə nə gərək var idi? Deməli, ticarət mərkəzinin rəhbərliyi dolayısı yolla yüzlərlə sahibkarı etirazlara məcbur edir.

"Binə" Ticarət Mərkəzinin müdirəsi Kəbirə Məmmədova məsələ ilə bağlı baku.ws-ə bildirib ki, deyilənlərin hamısı şayiədir.

**Onun sözlərinə görə, bu bir qrup təxribatçının yaydığı böhtandır:** "Biz 2008-ci ildən bura köçmüşük. O vaxtdan bəri icarə haqları nəinki qaldırılıb, hətta bu məbləğ bir az azaldılıb. Biz satıcılara daim güzəştlər edirik. Yaxın günlərdə yenə də güzəştlər edəcəyik. Yer pulunun qaldırılması məsələsi isə ağ yalandır".

**Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, ölkəyə idxal olunan bütün mal və nəqliyyat vasitələri yalnız qanunvericiliklə nəzərdə tutulub, "Gömrük Tarifi Haqqında Qanun"a uyğun olaraq, vergi və rüsumlara cəlb edilir:** "İdxal əməliyyatları zamanı lazım olan müvafiq sənədlər vaxtında və düzgün olaraq, gömrük orqanına təqdim edildikdə ən qısa zaman kəsiyində gömrük rəsmiləşdirilməsi həyata keçirilir".

❑ **Məhəmməd TÜRKMƏN**
**Foto müəllifindir**

# "Bank of Azerbaijan"ın lisenziyası ləğv edildi...

## Ekspertlər bunu düzgün qərar adlandırır bağlanan bankların sayı artacaq...

Ölkənin bank sistemində gözlənilən proseslər başlanır. Artıq bir bankın - "Bank of Azerbaijan"ın lisenziyası ləğv edilib. Bildirilir ki, Mərkəzi Bankın İdarə Heyətinin 18 yanvar 2016-cı il tarixli, 4 nömrəli qərarı ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, məcmu kapitalın adekvatlıq əmsalının 3 faizdən az olduğuna, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Bank of Azerbaijan" ASC-nin bank lisenziyası ləğv edilib.

Mərkəzi Bankdan APA-ya verilən məlumata görə, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 18.01.2016-cı il tarixdən banka müvəqqəti inzibatçı təyin edilib. Mərkəzi Bank bildirir ki, "Bank of Azerbaijan" ASC-də Əmanətlərin Sığortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək.

**Ekspert Samir Əliyev isə bu addımı düzgün qərar hesab edib:** ""Bank of Azerbaijan" ASC-nin bağlanması qərarı düzgün addımdır və təəssüf ki, xeyli gecikib. Onsuz da bankın maliyyə imkanları çox pis idi və əmanətləri qaytara bilmirdi. Əmanətçilər aylarla süründürülürdü, ancaq əmanəti geri ala bilmirdilər. Səbəb çox sadə idi: bankın maliyyə vəziyyəti pisləşmişdi. Digər tərəfdən də Mərkəzi Bank bankın lisenziyasını ləğv etmirdi. Bu isə sığorta hadisəsinin baş verməsinə imkan vermir. Nəticədə bank yarımcan idi. Nə birdəfəlik bağlanmırdı ki, camaat da pulunu Əmanətlərin Sığortalanması Fondundan geri alsın. Nə də vəziyyəti düzəlmirdi. İl ərzində baş verən devalvasiya bankın xilası ümidini də itirdi. Bu baxımdan bank sektorunun dayanıqlığını pozan bilən daha bir bankın bazarı tərk etməsi yaxşı qarşılanmalıdır".

**Ekspertin sözlərinə görə, "Bank of Azerbaijan" yeganə deyil:** "Daha bir neçə bank var ki, oxşar vəziyyətdədir. Onlara da Mərkəzi Bank əncam çəksə, yaxşı olar. Onu deyim ki, bu, 2016-cı ildə bağlanacaq yeganə bank olmayacaq. İl ərzində bazarı tərk edəcək bankların sayı çox olacaq. Ona görə də Mərkəzi Bank əhalinin bank sektoruna inamını qorumaq üçün təcili surətdə əmanətlərin sığortalanması mexanizmini təkmilləşdirməlidir".

Qeyd edək ki, bankların bağlanması, yaxud birləşdirilməsi bir neçə ilin mövzusudur. Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev də bankların vəziyyətinə toxunub. İlham Əliyev bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini çatdırıb. Ekspertlər isə ilin sonuna qədər əksər bankların bağlanacağının anonsunu verirlər.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında qeyd edib ki, problemin ciddiliyi hökumət tərəfindən diqqətə alınmalıdır:** "Bankların bağlanması, tamamilə fəaliyyətini dayandırması baş verəcək. İri bankların kiçik bankları özünə birləşdirməsi, təmərküzləşməsi pozitiv addım olardı. Sadəcə, bizdə problem odur ki, bütün bankların eyni tipli problemləri var. Yəni xarici borcları çoxdur, daxili kreditlərin yığılmasında problemlər var, problemli kreditlər həddindən artıq yüksək səviyyəyə çatıb. Bütün bunlar təbii ki, bankların ümumi durumunu pis vəziyyətə salıb. Ona görə də tək təmərküzləşmə ilə bu problemləri kökündən həll etmək mümkün olmayacaq. Daha ciddi addımlar atılmasına ehtiyac olacaq. Çünki bankrot olan, tamamilə sıradan çıxan bankları da görəcəyik. Bank sektoru çox pis durumdadır".

**Ekspertin sözlərinə görə, dövlətin gücü çatacaqsa, müəyyən banklara dəstək əli uzatmalı olacaq:** "Bunsuz problemi tam çözmək mümkün olmayacaq. Ya dövlət büdcəsi hesabına, ya Neft Fondu hesabına və yaxud da digər resurslar hesabına bank sisteminə müəyyən dərəcədə dəstək vermək lazım olacaq. Bu dəstək elə olmalıdır ki, keçmişdə olan yatırımlar və böyük proqramlar kimi boşa getməsin. Bu dəstək proqramlarının heç olmasa ciddi effekti olsun. Bunun üçün isə ciddi ictimai nəzarətə, mediа nəzarətinə, hesabatlılığa ehtiyac var. Bunu edəcəklər, ya etməyəcəklər, bu, məsələnin ikinci tərəfidir".

Ekspertlər qeyd edirlər ki, 2016-cı il ərzində bankların azı yarısı bazarı tərk edəcək.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016



# Ramil Usubov Nardaran sakinləri ilə görüşdü

## Qəsəbədə tikinti-abadlıq işləri davam etdirilir



**Ötən il dekabrın 1-dən Nardarana qəsəbə sakinlərindən başqa heç kim buraxılmır. Daxili Qoşunların və polisin nəzarətində olan qəsəbəyə giriş yalnız şəxsiyyət vəsiqəsi ilə mümkündür. Və yalnız qəsəbə sakini şəxsiyyət vəsiqəsini təqdim etməklə postdan keçə bilir.**

Nardaran hadisələrindən sonra baş verən aksiyalarda saxlanılanlar haqda rəsmi məlumat verilmir. Aksiyalarda iştirak edənlərin axtarışı hələ də davam etdirilir.

Musavat.com-un əldə etdiyi məlumata görə, hazırda polis tərəfindən axtarışda olan bəzi Nardaran sakinləri dekabrın 1-də keçirilən əməliyyatlardan əvvəl qəsəbəni tərk ediblər. Onların bəzilərinin ölkəni tərk etdiyi deyilir.

Tam şəkildə polis nəzarətində olan qəsəbədə yeni polis bölməsi yaradılıb. Polis bölməsinin əməkdaşları tərəfindən artıq bir neçə əməliyyatlar keçirilib.

Bir neçə gün əvvəl isə qəsəbədə dindarlarla görüş keçirilmişdi. Görüşdə millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdulla və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı iştirak etmişdi. Görüşdə qəsəbənin ağsaqqalları və dindarları da iştirak etmişdi.

Növbəti görüş isə daxili işlər naziri Ramil Usubovun iştirakı ilə olub. Daxili İşlər Nazirliyinin məlumatına görə, yanvarın 17-də Sabunçu Rayon Polis İdarəsində baş tutan görüşdə nazir bildirib ki, Nardaranda kriminogen durum tam nəzarətdədir.

R.Usubov qəsəbədə aparılan intensiv tikinti-quruculuq və sakinlərin sosial-məişət problemlərinin qısa müddətdə aradan qaldırılması üçün görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirib. Nazir qəsəbə sakinlərinin nəzərinə çatdırıb ki, Nardaranda aparılan abadlıq-quruculuq işləri, eləcə də dövlət orqanlarının yerli qurumlarının tam fəaliyyət göstərməsi istiqamətində atılan bütün addımlar prezident İlham Əliyevin birbaşa nəzarətindədir.

Görüşdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, millət vəkili Eldar Quliyev və rayon polis idarəsinin rəisi Eldar İlyasov da iştirak edib.

Onu da qeyd edək ki, mətbuatın Nardaranla əlaqəsi tam olaraq kəsilib. Mətbuata qəsəbədə baş verən son hadisələr, görülən işlər, həyata keçirilən əməliyyatlar barədə məlumat verən yeganə şəxs Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov idi. O isə yanvarın 6-da həbs edilib. N.Kərimov Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı həbs edilib. Barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilən N.Kərimov dövlətə xəyanətdə ittiham olunur.

Hazırda DTX-nin təcridxanasında saxlanılan N.Kərimovla vəkili görüşür. N.Kərimovun oğlu Kamran Kərimov musavat.com-a açıqlamasında bildirib ki, hazırda atasının səhhəti ilə bağlı heç bir problemi yoxdur. Vəkilin ailəyə verdiyi məlumata görə, N.Kərimov saxlanılma şəraitindən narazı deyil.

❑ **İlkin MURADOV**

# Prezidentdən fövqəladə bəyanatlar - Davosa hazır proqramla...

## Dövlət başçısı İlham Əliyev son bir həftədə nazirlərlə iki toplantı keçirərək mühüm açıqlamalar verdi: böyük özəlləşdirmə başlayır...



**Yanvarın 18-də prezident İlham Əliyev Nazirlər Kabinetinin ölkədəki iqtisadi-sosial vəziyyətə həsr edilmiş fövqəladə toplantısını keçirib. Bu, son bir həftədə prezidentin nazirlərlə keçirdiyi ikinci toplantıdır.**

Dövlət başçısının yanvarın 10-dan sonra Nazirlər Kabinetinin fövqəladə toplantısını çağırması bölgələrdə sosial aksiyaların keçirildiyi bir vaxta təsadüf edir. İlk müşavirədən keçən qısa zamanda süni qiymət artımı ilə bağlı tədbirlər həyata keçirilib, unun qiyməti tənzimlənib, maliyyə bazarında sabitləşdirici addımlar atılıb, pensiya, maaşlar və qaçqınların müavinəti artırılıb, o cümlədən struktur islahatları başlayıb. Yanvarın 18-də keçirilən toplantı verilən mesajlar baxımından əvvəlki iclasın davamı da hesab oluna bilər.

Prezident çıxışında son bir ildə neftin qiymətinin 4 dəfə düşdüyünü, Azərbaycanın vəziyyətdən çıxmaq üçün addımlar atdığını deyib. İ.Əliyev ölkədə islahatların dərinləşməsinin vacibliyini vurğulayıb, bununla bağlı səslənən təkliflərin artıq icra olunmağa başladığını deyib. İlk növbədə insanların sosial müdafiəsi ilə bağlı məsələlərin diqqət mərkəzində saxlanılacağını deyən dövlət başçısı pensiya və əmək haqlarının 10 faiz qaldırılmasının bu istiqamətdə atılan önəmli addım olduğunu söyləyib.

Prezident çıxışında yenə də süni bahalaşmaya qarşı ciddi mübarizə aparılmasının əhəmiyyətini vurğulayıb, çörəyin və unun qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşdüyünü xatırladıb.

Struktur islahatları ilə bağlı artıq müəyyən addımların atıldığını deyən İ.Əliyev bəyan edib ki, bu tədbirlər daimi olmalı, bir-birini təkrarlayan və lazımsız dövlət qurumları ya birləşdirilməli, ya da ləğv olunmalıdır.

Valyuta bazarının tənzimlənməsi ilə bağlı müvafiq göstərişlərin verildiyini, təkliflərin hazırlandığını deyən dövlət başçısı bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsinin əhəmiyyətinə toxunub, Milli Məclisin bu gün keçiriləcək növbədənkənar sessiyasında məsələyə baxılacağını deyib.

Qeyri-neft sektorunun inkişafının prioritet olmasının vacibliyini bildirən İ.Əliyev Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bu il 250 milyon manat güzəştli kreditlərin veriləcəyini, sahibkarların öz maliyyə resurslarını da nəzərə alaraq o zaman regionlara qoyulan investisiyanın həcminin təxminən 1 milyard manat olacağını bildirib.

Prezident çıxışında iş adamlarına böyük tikinti layihələrini icra etmək üçün şəraitin yaradılması, bu sahədə mövcud olan əsassız tələblərin, bürokratiya və korrupsiya hallarının aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar verib.

Nazirlər Kabinetinin toplantısında ən mühüm məsələ isə prezidentin beynəlxalq ekspertlərin iştirakı ilə geniş özəlləşdirmə proqramının hazırlanması, bu işə xarici və yerli investorların cəlb olunması, xarici borclanmaya gedilməsi və daxili borclanma üçün dövlət istiqrazlarının dövriyyəyə buraxılması ilə bağlı dedikləridir.

***

Hələ ötən toplantıdan sonra belə ehtimallar vardı ki, Azərbaycanın çətin iqtisadi vəziyyətdən çıxmaq üçün əsas variantlarından biri geniş özəlləşdirməyə qərar verməsidir. Təsadüfi deyil ki, ötən həftə Rusiyanın baş naziri Dmitri Medvedyev də deyib ki, neftin qiyməti kritik həddə ucuzlaşması səbəbindən dövlət müəssisələrinin özəlləşdirilməsi proqramı hazırlanır. Yeni iqtisadiyyatı neftdən asılı ölkələrin əsas çıxış yollarından birini böyük özəlləşdirmədə görür. Prezidentin özəlləşdirmə ilə bağlı anonsu Davos Forumundan bir neçə gün əvvəl verməsi də yəqin ki, təsadüfi deyil. Çünki prezidentin də iştirak edəcəyi Davos Forumunda iş dünyasının ən ünlü simaları, iri şirkət və korporasiya rəhbərləri də iştirak edəcək. Bu isə artıq onlarla ilk danışıqlar üçün mühüm bir açardır ki, prezident bunu elan etdi.

Virtualaz.org saytı yazır ki, böyük özəlləşdirmə proqramına daxil edilə biləcək dövlət səhmdar cəmiyyətləri arasında ilk növbədə "Azərenerji", AZAL, "Azərsu", "Azəristiliktəchizat", "Azəraliminium" kimi ASC-lər yer ala bilər. Çünki bu ASC-lərə ötən 10-12 il ərzində həm dövlət büdcəsindən, həm xarici kreditlər hesabına milyardlarla dollar investisiya yönəldilsə də, əsasən pis menecment ucbatından onların maliyyə səmərəliliyi çox aşağıdır. Bu ASC-lərin dövlət büdcəsi qarşısında milyardlarla manat vergi borcları yığılıb qalıb.

Prezidentin çıxışını "Yeni Müsavat"a şərh edən ekspert ehtimal edir ki, ola bilsin, söhbət mütləq şəkildə hansısa qurum və ya obyektlərin satılmasından getmir. Məsələn, "Azəriqaz" və "Azərelektrik"in səlahiyyətləri uzunmüddətli idarəetməyə verilə bilər. Çünki vaxtilə Bakının elektriklə təminatı "Barmek"ə verilmişdi. Sonradan bu qurum ləğv olundu, yenə dövlət bu işi öz üzərinə götürdü. Oxşar qaydada kommunal sferada uzunmüddətli idarəetmə və ən müxtəlif konsepsiya formalarından istifadə edərək özəlləşdirmə siyasəti həyata keçirilə bilər. SOCAR-ın tərkibindəki çoxlu sayda müxtəlif müəssisələrin satılması və ya özəlləşdirilməsi də mümkündür.

Habelə özəlləşdirməyə çıxarılacaq dövlət aktivləri arasında artıq başlamış struktur islahatları nəticəsində ləğv edilən dövlət təşkilatlarının inzibati binaları və əmlakı, onların balansında olan torpaq sahələri və s. yer ala bilər.

Azərbaycanın xarici borclarının aşağı səviyyədə olması qlobal iqtisadi böhranın fəsadlarını aradan qaldırmaq üçün hökumətə əlavə üstünlüklər vəd edir.

"Yeni Müsavat"da hələ ötən ilin sonunda Azərbaycanın iqtisadi böhran dövründə Qərblə daha intensiv, daha açıq siyasət yürütməsinin vacibliyini vurğulayan təhlillər yer almışdı. Həmin təhlillərdə xüsusi vurğulanırdı ki, Azərbaycan Qərbin pullarının toplandığı maliyyə mərkəzləri ilə daha intensiv danışıqlara başlamalı, təxirəsalınmaz iqtisadi islahatlar aparılmalı, qeyri-neft sektoruna Qərb investorlarını cəlb etməlidir...

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# Tiflisin Bakıya qaz şantajına ABŞ-dan dəstək - şok gəlişmə

## Vaşinqton SOCAR-ın "Qazprom"la sıxışdırılmasını təqdir etdi; İran-Amerika münasibətlərinin ılıqlaşmağa üz tutması və Konqresdə Azərbaycan əleyhinə sənədin müzakirəsi ərəfəsində belə bir gediş təsadüfdürmü?..

**Qonşu və strateji tərəfdaş saydığımız Gürcüstan qaz bazarının şaxələndirilməsi adı altında Azərbaycana qaz şantajını davam etdirir. Özü də bunu "işğalçı ölkə" adlandırdığı Rusiyanın monopolist qaz şirkəti olan "Qazprom" vasitəsilə həyata keçirməkdədir.**

Rusiyapərəst sabiq baş nazir Bidzina İvanişvilinin "uşaqaları"nın belə təhlükəli gedişləri ölkə daxilində də ciddi narazılıq və təpki ilə qarşılanıb. Artıq neçə vaxtdır "Qazprom"la qaz sövdələşməsinə qarşı paytaxt Tiflisdə etiraz aksiyası keçirilir. Müxalifət liderləri, eyni zamanda müstəqil gürcü ekspertlər haqlı olaraq hesab edirlər ki, Rusiyadan qaz asılılığı ölkənin müstəqilliyinə ciddi təhlükəyə, paralel surətdə isə "dost və müttəfiq Azərbaycanla münasibətlərin korlanması"na gətirə bilər.

***

Yada salaq ki, gürcü hökuməti neçə vaxtdır Ermənistan üzərindən İran qazının da alınmasına dair danışıqlar aparır. Həmin danışıqların içində həmçinin "Qazprom"un olduğu bildirilir. Bəzi siyasi şərhçilərə görə, rəsmi Tiflis bununla Azərbaycan qazının qiymətini *(min kub metr üçün 190 dollar)* daha da aşağı salmağa çalışır. Yəni yenə şantaj məsələsi.

Başqa versiyaya görə isə bu, həm də Moskvaya siyasi reverans məqsədi güdür - guya bununla, Rusiyanın Gürcüstana separatçı bölgələrlə bağlı aqressiv siyasəti yumşalacaq, şimaldan təhlükələr səngiyəcək. Təbii ki, illüziyadır. Ukrayna (Krim, Donbas) nümunəsi göstərdi ki, Kreml hətta güclü qaz təchizatçısı olduğu bir ölkənin *(konkret halda Ukraynanın)* ərazisini də yeri gələndə çəkinmədən işğal edə bilir.

***

Bu arada ABŞ gözlənilmədən Gürcüstan bazarında SOCAR-ın sıxışdırılmasına və Rusiyanın "Qazprom" şirkətinin, habelə İranın bu bazara girməsinə dəstək verib (Virtualaz.org). Belə ki, Amerikanın Tiflisdəki səfiri Yan Kelli "İmedi" telekanalına müsahibəsində Gürcüstan hökumətinin "Qazprom"la danışıqlarında qəribə heç nə görmədiyini bildirib. Lakin əlavə edib ki, hökumət bu danışıqlarda daha çox şəffaflığı təmin etməlidir.

Diplomatın bildirdiyinə görə, onun "Qazprom"la danışıqlara dair hökumətdən aldığı məlumat "çox əhatəlidir". "Gürcüstan təkcə bir təchizatçıdan asılı olmalı deyil", - deyə səfir Gürcüstanın qazla təchizatının 90 faizinin Azərbaycandan təmin olunduğunu eyhamla qeyd edib.

Səfir onu da bildirib ki, Tiflis "Qazprom"la danışıqlarda ölkənin energetika müstəqilliyini saxlamaq üçün mümkün olanı etməlidir. **"Ölkə təkcə bir enerji mənbəyindən asılı olmalı deyil. Ona görə də diversifikasiya haqda düşünmək lazımdır və Gürcüstan hökumətinin Rusiya ilə danışıqları uzaqgörən, müdrik addımdır"** - Kelli əlavə edib. Diplomatın fikrincə, energetika siyasəti cəmiyyətdə suallar yaratmalı deyil. Ona görə də hökumət ictimaiyyəti daha çox məlumatlandırmalıdır.

***

Onu da xatırladaq ki, Gürcüstan hökuməti ilə "Qazprom"un kommersiya qaz bazarına daxil olmasına dair danışıqları artıq son mərhələdədir. Detallar açıqlanmasa da, bildirilir ki, söhbət Gürcüstanın Rusiyadan hər il 500 milyon kubmetrə qədər əlavə qaz almasından gedir. Hazırda Gürcüstan Ermənistana qaz tranziti üçün "Qazprom"dan ildə qiyməti 220 dollardan 400 milyon kubmetr qaz alır. Ölkənin qaza olan illik tələbatı 2.5 milyard kubmetr göstərilir.

Gürcüstanın energetika naziri Kaxa Kaladze deyib ki, SOCAR ölkənin artan tələbatını ödəmək gücündə deyil. Üstəlik, buna Azərbaycandan Gürcüstana qaz nəql edən kəmərin imkanları da bəs etmir. Azərbaycan tərəfi isə əksinə, bildirir ki, Gürcüstanın qaza olan tələbatını tamamilə ödəmək imkanındadır. Ötən həftə SOCAR prezidenti Rövnəq Abdullayev Tiflisdə bu mövzuda danışıqlar aparsa da, görünür ki, tərəflər razılaşma əldə edə bilməyiblər.

İndi isə ABŞ-ın "Qazprom"un Gürcüstan bazarına daxil olmasına "yaşıl işıq" yandırması Vaşinqtonun regiona dair siyasəti baxımından anlaşılmaz görünə bilər. Çünki ötən həftə Amerika Xarici Siyasət Şurasının eksperti Stiven Blank bildirmişdi ki, Rusiyadan qaz idxalı Gürcüstanın ABŞ-la münasibətlərinə mənfi təsir edəcək.

Onun fikrincə, Azərbaycanın Gürcüstana zəruri həcmdə qaz təchizatını həyata keçirdiyi vaxtda Rusiya və ya İrandan qaz almağa ehtiyac yoxdur. Blank bunun ictimaiyyətə deyil, hansısa şəxslərə fayda gətirəcək siyasət olduğunu demişdi. **"Bu, ABŞ-ın Gürcüstanla münasibətlərinə mənfi təsir edəcək və Gürcüstanın Rusiyaya müqavimət imkanlarını zəiflədək"** - Amerika rəsmisi vurğulamışdı.

***

Elə gürcü müxalifəti də bunu deyir. Gürcüstanın keçmiş yanacaq və energetika naziri David Mirtsxulava isə "Qazprom"la Tiflis arasında aparılan danışıqların detallarını açıqlayıb. Sabiq nazir deyib ki, Rusiya şirkəti Ermənistana qaz tranzitinə görə Gürcüstanın götürdüyü qaz həcminin əvəzində pul kompensasiyası məsələsini çox kəskin qoyub. Onun sözlərinə görə, hələ konkret rəqəm demək mümkün deyil, çünki danışıqlar hələ yekunlaşmayıb.

David Mirtsxulavaya görə, "Qazprom"un əlində Gürcüstanın hansısa şərtlərə razılıq verməməsi halında istifadə etmək üçün müəyyən "kozır"lar var. Bu halda, yeni Gürcüstan şərtlərə razılıq verməsə, "Qazprom" Azərbaycan üzərindən İrana ildə 10 milyard kubmetr qaz nəql edəcək. Həmin sxem Gürcüstan marşrutundan istifadəni nəzərdə tutmur və nəticədə Gürcüstan böyük itkilərlə üzləşəcək.

Rusiyanın İrana svap prinsipi əsasında qaz nəqli planları bu yaxınlarda açıqlanıb. "Qazprom" İrana müəyyən həcmdə qaz nəql edib əvəzində Fars körfəzində eyni həcmdə İran qazını qəbul etməyi və bazara çıxarmağı nəzərdə tutur. Lakin bu plan baş tutarsa, Rusiya qazının İrana hansı marşrutla ötürüləcəyi hələ açıq qalır. Bunun üçün Gürcüstan-Ermənistan marşrutundan istifadə də nəzəri olaraq mümkündür, ancaq Rusiya qazının İrana nəqli üçün Azərbaycan marşrutu ən sərfəlidir.

***

Göründüyü kimi, indiki gürcü hökuməti kifayət qədər riskli qaz oyunlarının içindədir. Bu oyunlara qəfildən ABŞ səfirinin dəstək verməsi və Azərbaycanın maraqlarının gözardı edilməsi isə xüsusi diqqət çəkir. Belə bir dəstək indi azı, iki mühüm və yeni məqama görə önəmli sayıla bilər.

Məsələ ondadır ki, səfirin açıqlaması Azərbaycan hakimiyyəti əleyhinə ABŞ Konqresinin Helsinki Komissiyasının həmsədri Kristofer Smit tərəfindən hazırlanan məlum sənədin müzakirəsinə sayılı günlər qalmış səslənib. Yan Kellinin bəyanatı həmçinin, İran üzərindən sanksiyaların götürülməsi və Tehran-Vaşinqton münasibətlərinin ılıqlaşmaya üz tutması, İranın neft-qaz bazarına qayıdışı üçün yolun açılması, nəhayət, bununla da Azərbaycanın Avropadan ötrü energetik önəminin (nəzəri olaraq) azaldığı dönəmə təsadüf etməsi ilə diqqət cəlb edir.

Ayrı sözlə, bu açıqlama dolayısıyla rəsmi Bakıya mesaj, hətta təzyiq xarakteri daşıyır. Dəqiqini bilmək üçün yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Çünki proseslər artıq sürət alıb.

❑ **Analitik xidmət**

# Tərifli tarifin o biri tərəfi



**Xalid KAZIMLI**

**Elə bil, bir balaca gec oldu axı. İndən belə AZAL aşağı tarifli yerlərin yeni blokunu ha tətbiq etsin, umulan effekti verəcəkmi?**

Bu, altı ay, bir il, hətta iki il öncə tətbiq edilsəydi, həm ölkə turizminə böyük töhfə verərdi, həm də sırf işgüzar səfərə gedənlərin qrafikinin intensivliyinə müsbət təsir göstərərdi.

Uçuş biletlərinin bahalısı üzündən hər yay xeyli adam tətilə gedə bilmirdi. Nə qədər adam xaricdə yaşayan qohum-əqrəbasına heç olmasa ildə bir dəfə baş çəkmək imkanından məhrum olurdu.

Azərbaycan vətəndaşları firavan avropalılar qədər təminatlı olmasalar da, təyyarədə onlardan baha uçurdular.

Avropalılar aylıq qazanclarının kiçik bir faizini təyyarə uçuşlarına sərf etdikləri halda, orta statistik azərbaycanlının bir geri dönüşlü uçuşu aylıq maaşına başa gəlirdi.

Üstəlik, Azərbaycan dövləti ölkəmizə gəlib-gedən on minlərlə əcnəbinin uçuş xərclərini öz üzərinə götürmüşdü. Son on ildə Azərbaycanda keçirilən saysız-hesabsız idman, musiqi yarışmalarında, simpoziumlarda, konfranslarda, forumlarda və sair bu kimi tədbirlərdə iştirak edən minlərlə əcnəbi ölkəmizə pulsuz uçublar. Onların hamısının xərcini dövlətimiz çəkib.

Məqsəd Azərbaycanı dünyada, xüsusilə də Avropada tanıtmaq, sevdirmək idi. Ancaq bu, dövlətə baha başa gəlirdi.

Nə qədər ki, ölkəyə neft pulları sel kimi gəlirdi, bunun qorxusu yox idi, hesab edə bilərdik ki, avropalılar bizdən aldıqları bahalı neftin pulunun bir hissəsi ilə ölkəmizə müftə-müsəlləm uçurlar. Ancaq neft pulu azaldıqdan, manat dəyərini iki dəfədən artıq itirdikdən sonra adam əcnəbilərin uçuşlarına xərclənən pullara heyfsilənməyə bilmir.

Əsas da ona görə ki, bu sayaq təbliğatın, "Azərbaycan həqiqətlərini dünyaya çıxarmağ"ın elə bir faydası olmadı. Hazırda az qala ABŞ-ın, Avropanın tətbiq edəcəyi sanksiyalarla üz-üzəyik.

Təyyarə biletlərinin ucuzlaşdırılması tələbi, yadınızdadırsa, ötən ilin yayında qızğın müzakirə predmeti oldu. Ölkənin ictimai-siyasi fəal kəsimi yekdilliklə bu fikirdə idilər ki, AZAL öz tarif siyasətinə yenidən baxmalıdır, qiymətləri ucuz etməlidir ki, həm ölkə xaricinə getmək istəyənlərə, həm də ölkəyə gəlmək fikrində olanlara rahat olsun.

Ancaq AZAL rəhbərliyi direşdikcə direşirdi. Hətta bu məsələ dövlət başçısı tərəfindən müşavirədə dilə gətirildikdən sonra da AZAL başbilənləri "saqqaldan götürüb bığa yaxmaq" dəstiri bir tədbir həyata keçirdilər və məlum oldu ki, bilet ucuzlaşmayıb, sadəcə, minnəti artıb.

Bu üzdən idi ki, hər həftə yüzlərlə insan adicə Türkiyəyə getmək üçün ya qatarla, ya avtobusla, ya da "Mersedes-sprinter" mikroavtobusuyla qonşu Gürcüstana gedir (hətta öz şəxsi maşınıyla gedənlər də vardı), Tiflis aeroportundan istədikləri şəhərə uçurdular. Bu, bir qədər əziyyətli (iki-üç nəqliyyat növü dəyişmək və 500 kilometr əlavə məsafə qət etmək) iş onlara 100-200, bəzənsə hətta 1000 dollar qənaət etməyə imkan verirdi.

Təsəvvür edin ki, 5 nəfərlik ailə Bakıdan Bodruma getmək üçün təkcə təyyarə biletlərinə 2200 dollar verməli olduğu halda, bu, Tiflisdən 1050 dollara başa gəlirdi. Adam 7 saatlıq yol yorğunluğu müqabilində 1000 dollar qazana bilirdisə, bundan imtina etmirdi.

Bu səbəbdən AZAL təkcə keçən ilin yayında minlərlə 1000 dollar itirdi. Vətəndaşlarımız o pulları aparıb əcnəbi hava şirkətlərinə verdilər.

İndi deyirlər, aşağı büdcəli sərnişindaşıma xətlərinin yekun satış qiyməti bir tərəfə 99 avrodan çox olmayacaq, ekonom-klass tariflərinə 20 faiz endirim tətbiq olunacaq və sair və ilaxır.

Biz bu fikrə gəlmək üçün mütləq devalvasiya olmalıydımı? Mütləq qlobal iqtisadi böhran bizə reallıq hissini qaytarmalıydımı?

Keçən ilin bu vaxtı ilə müqayisədə insanların qazancı iki dəfə yarımdan çox azalıbsa, xərcləri iki dəfədən çox artıbsa, əmin olun ki, minlərlə adam təxirəsalınmaz zərurət olmadıqca ölkədən-ölkəyə uçmaq fikrinə düşməyəcək.

Deyəsən, kefimizin göydə uçduğu vaxtlar məchul günə qədər təxirə düşüb. AZAL-ın güzəştli tarifi bu yaranı sağaltmayacaq.

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016



# Etirazlar niyə baş verir?

Hüseynbala SƏLİMOV

**Onları çox gözləmək lazım gəlmədi. Xaotik sosial etirazları deyirəm. Bir-birinin ardınca bir neçə sosial etirazın baş verməsi haqqında xəbərləri eşitdik və desək ki, təəccüblənmədik, bu, reallığı təhrif etmək olmaz. Ona görə təəccüb etmədik ki, bütün rəsmi "ideoloji frazeologiya"ya rəğmən Azərbaycan cəmiyyəti də normal cəmiyyətdir, o, normal insanlardan təşkil olunub. Normal insanlar isə heç vaxt bahalaşmanı və iqtisadi böhranı alqışlamırlar...**

Təbii ki, hakimiyyət etirazlarda ilk olaraq müxalifətin izlərini axtardı. Amma güman etmirik ki, bu izlər düşünülən qədər qabarıqdır. Sanki müxalifət olmasaydı insanlar bahalaşmanı alqışlayacaqdılar!..

Son vaxtlar rəsmi siyasətdə məntiq axtarmıram. Ona görə ki, bu səmərəsiz, tamam absurd bir məşğuliyyətdir. Amma ən azı formal məntiq olmalıdır və insanların davranışını ən azı formal məntiq çərçivəsində yozmağa cəhd etmək lazımdır...

Formal məntiq isə başqa şey deyir. O, bir daha ərz edir ki, bahalaşma heç də alqışlanmır, insanlar ailələri və uşaqları qarşısında aciz görünməyi toy-bayram kimi qeyd etmirlər...

Hər şey sadədir: "İlan vuran yatar, ac yatmaz!" deyiblər. Çox şey demək olardı - bəli, geosiyasətdən tutmuş qeyri - neft erasına qədər çox şeyi ard-arda düzüb-qoşmaq olardı...

Amma mənası varmı? Əsas bilirsiniz nədir? Biz əyalət kapitalizminin eybəcər modelini yaratdıq. Buna "klassik kapitalizm" də demək olar. O kapitalizm ki, Qərb ədəbiyyatında həmişə yamanlanıb...

Biz nə etdik? İnsanlara iqtisadi və siyasi azadlıq verməmədən, onları qeyri-bərabər və mürtəce rəqabətdən qorumadan, məmurların onlara uzanan çirkli əllərini kəsmədən, onları inhisar deyilən iqtisadi atavizmdən hifz etmədən kapitalizmin qucağına atdıq və onlara "boğulanların xilası elə boğulanların özündədir" dedik...

Ömrünü iş axtarışına sərf edən yazıq adamlara "təqaüd almağınız öz işinizdi!" dedik. Daşlı-kəsəkli yerdə bir-iki hektar torpağı və yabadan-beldən savayı bir aləti olmayan adama "artıq fermersən!" dedik. Fəhlələri lap vəhşi kapitalizm dövründə olduğu kimi muzdlu qullara çevirdik. Bu da azmış kimi, düşündük ki, onlar buna görə bizi alqışlayacaq...

Yox, onlar alqışlamadılar. Alqışlaya da bilməzdilər. Ona görə ki, bizim istəyimizə rəğmən, onlar robot deyillər, insandırlar... Qərəz, çox gileylənmək və ağılar yazmaq olardı. Amma bunu etməyəcəyik. Həmişə olduğu kimi "Nə etməliyik?" deyə də sormayacağıq...

Ona görə ki, çox təkliflər verilib. Onların fərqinə isə varan yoxdur. Hökumət özünü elə aparır ki, sanki bütün sualların cavabını bilir və heç kimdən məsləhət ummur. Bəli, onlara elə gəlir ki, bizim azərbaycanlılar istismar etmək, aldatmaq və əzmək üçün ən ideal cəmiyyətdir. Onlara elə gəlir ki, bu cəmiyyəti bundan sonra hələ yüz il də aldada, əzə və istismar edə bilərdilər, fəqət, buna bir-iki müxalifətçi və ya jurnalist mane olur...

Burada kapitalizmin dalınca deyinəsi də deyilik. Ona görə ki, kapitalist ölkələri də göz önündədir. Axı kim bizə dedi ki, əyalət, periferiya kapitalizmi yapaq? Belə "sifariş" vardımı? Yox idi. Sadəcə, bizi idarə edənlərə belə daha çox sərf edir...

Amma bu da səthi qənaətdir. Bir gün əzilən insan qeyzlə çevrilib qırmancın sapını əlinə alır. Siz nə qədər sərt və qəddarsınızsa sizə qarşı çevrilən həmin o əzilən insan da bir o qədər sərt olacaq. Bumeranq hansı sürətlə atılırsa, geriyə də həmin sürətlə dönür...

Bu etirazların bir tərəfi də var. Onlar göstərir ki, insanlar düşünülən qədər də sınmayıq. Düşünülən qədər də çökməyib. Onlar öz kimliklərinin, necə deyərlər, fərqindədirlər, hələ ayaq üstə qalxa bilirlər...

Bütün inkişaf yolları, ssenariləri arasında ən pisi inqilabdır - yaxşısı odur ki, inkişaf onlara öz tutmadan baş versin. Bütün inqilabların içində də elə ən pisi acların qiyamıdır...

Ona görə də gəlin, yaxşı-yaxşı düşünək. Biz insanları hara sürükləyirik, onları nəyə təhrik edirik? Doğrudanmı bizi bu ssenari qane edir? Yoxsa elə İ.Stalinin vaxtındakı tək ac kütlənin qarşısına qoşun çıxarmaq niyyətindəyik?..

Kapitalizm insanların indiyə vaxta qədər düşünüb-tapdığı ən uğurlu iqtisadi modeldir. Amma onu insanı əzən cəhənnəm mexanizminə də çevirmək olar. Gəlin bunu etməyək - kapitalizmi cəhənnəm maşınına çevirməyək. İnanın, bu, hamımız üçün yaxşı olar...

# "Xarici qüvvələr sosial aksiyalardan istifadə edə bilər" iddiasına reaksiya

## Natiq Miri: "Sosial etirazları hələlik hansısa xarici qüvvələrə bağlamaq şişirtmə olardı, lakin..."

**Ötən həftə Azərbaycan üçün gərgin keçdi. Qiymət artımı və işsizliyə qarşı 4-5 rayonda əhalinin etiraz aksiyaları keçirildi. Bəlli oldu ki, hər an ölkədə fors-major situasiyalar yarana və insanlar hətta müxalifətə də ehtiyac görməyərək küçələrə axışa bilərlər. Bəzi siyasi ekspertlərin fikrincə, belə situasiyalar daha çox təhlükəli perspektivlər vəd edir. Hesab olunur ki, devalvasiya və neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, kütləvi şəkildə işsizliyin yaranması şəraitində xarici qüvvələr çox asanlıqla xalqın vəziyyətindən istifadə edib hərəkətə keçə, Azərbaycanla bağlı layihələrini gerçəkləşdirmək istəyərlər.**

Azərbaycanın müasir tarixində təlatümlər yaşanıb və ölkədəki durumdan xarici qüvvələrin öz mənfəəti üçün yararlanmağa çalışdığı barədə faktlar kifayət qədərdir. Ona görə də ekspertlər şübhə etmirlər ki, ölkədəki mövcud problemlər xarici qüvvələrə də əl-qol açmaq imkanı verir. Bu düşüncədə olan ekspertlər hesab edir ki, Azərbaycanda "beşinci kolon"un kifayət qədər dayaqlara malik olması da təhlükədir. Belə ki, Azərbaycanı hansısa xarici qüvvənin boyunduruğuna keçirmək qəsdində olanlar bunun üçün fürsət gözləyir və ölkənin iqtisadi böhranla üz-üz qalması fürsətcillərin işinə yarayır. Hətta artıq belə qüvvələrin hərəkətə keçdiyi iddiaları da var.

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri** bu mövzuda "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda iqtisadi böhranla bağlı ilkin olaraq sosial etirazlar görüntüsü var. Bu prosesin kənd rayonlarından başlaması təbiidir. Paytaxt Bakıdan fərqli olaraq regionlarda işsizlik daha çoxdur, əmək haqqı da Bakıya nisbətdə çox aşağıdır. Nəzərə alsaq Rusiyadan kənd rayonlarındakı ailələrə pul köçürmələrinin minimum səviyyəyə enməsi rayonlarda əhalinin durumunu daha da çətinləşdirib. Ona görə də sosial etirazlar müşahidə edilməkdədir. Bu sosial etirazları hələlik hansısa xarici qüvvələrə bağlamaq şişirtmə olardı: "Amma gələcəkdə bu hadisələrdən Azərbaycanı sevməyən xarici qüvvələrin istifadə etməsi ehtimalına gəlincə, bu mümkündür. Ölkənin daxilində "beşinci kolon"un güclü olması, İrana bağlı qüvvələrin mövcudluğu Azərbaycanı sarsıtmaq istəyən xarici güclərin bu istəklərini həyata keçirməsi üçün əlavə imkanlar yarada bilər. Rusiyanın "beşinci kolon"u hakimiyyətin içində yüksək vəzifələrdə təmsil olunurlar. "Beşinci kolon"un xarici qüvvələrin müəyyən təxribatlarına dəstək verməsi ehtimal oluna bilər. Ancaq onlar hələlik belə bir durum yoxdur. Ona görə həyəcan təbili çalmaq erkəndir".



Natiq Miri

**Ekspert bəyan etdi ki, həm xarici qüvvələrin, həm də "beşinci kolon"un hansısa məkrli planlarının qarşısının alınmasının yolu ölkədə ciddi siyasi, iqtisadi islahatlar həyata keçirmək və ölkədə barış mühiti yaratmaqdan keçir:** "İnsanlar işsiz və ac olanda istər xarici, istər daxili məkrli qüvvələrin planlarının həyata keçirilməsi üçün daha münbit şərait yaranır. Azərbaycanın iqtisadi sisteminin çöküşünə gətirən faktor məhz indi iş başında olan hökumət üzvləridir. Məhz onların fəaliyyətinin nəticəsidir ki, Azərbaycanda dayanıqlı iqtisadi sistem oturuşa bilməyib. İqtisadiyyat yalnız neftdən asılı vəziyyətə salınıb. Neft faktoru sıradan çıxdığı üçün iqtisadi sistem çöküb. Bu vəziyyəti aradan qaldırmaq üçün çox təcili və sürətli siyasi, iqtisadi islahatlar aparılmalıdır. Siyasi islahatlar olmadan iqtisadi islahatların ciddi effekti olmayacaq. Ona görə də ciddi siyasi islahatlar aparılmalıdır. Siyasi islahatlara ciddi kadr dəyişiklikləri ilə başlamaq lazımdır. Ölkəni vəziyyətdən çıxarmaq üçün yeni siyasi komandaya ehtiyac var. Ölkə iqtisadiyyatı və siyasəti Qərb dəyərlərinin tam şəkildə tətbiqi ilə reallaşdırılmalıdır. Prezidentin yanında İqtisadi Şura yaradılmalıdır və buraya həm hakimiyyətdən, həm də müxalifətdən olan müasir dünya görüşlü, müasir iqtisadiyyatı bilən mütəxəssislər təmsil olunmalıdır. Bu islahatlar aparıldıqdan sonra ölkədə növbədənkənar parlament seçkiləri keçirilməlidir. Cəmiyyətdə siyasi qüvvələr hansı nisbətdə təmsil olunursa, parlamentdə də o cür təmsilçilik özünü göstərməlidir. Bütün bunlar olarsa, xarici qüvvələrin planlarını alt-üst etmək, böhrandan çıxmaq və güclü Azərbaycan dövləti yaratmaq mümkündür".

❑ E.SEYİDAĞA

# Yeni MSK yaxın vaxtlarda formalaşdırılacaq

## Məzahir Pənahov yenə sədr olacaq

**Azərbaycan Mərkəzi Seçki Komissiyası (MSK), dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları yaxın vaxtlarda yenidən formalaşdırılacaq. Seçki Məcəlləsinə əsasən, MSK-nın və aşağı seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. Seçki Məcəlləsinə görə, MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən partiyaları təmsil edir. MSK-nın hazırkı tərkibinə Məzahir Pənahov (sədr), Natiq Məmmədov (sədr müavini), Arifə Muxtarova (katib), Mikayıl Rəhimov (katib), üzvlər Şaitdin Əliyev, Fuad Cavadov, Ramiz İbrahimov, Validə Kazımova, Qabil Orucov, Tofiq Həsənov, İlham Məmmədov, Nizami Nadirov, Azər Tağıyev, Tamam Cəfərov, Bəxşeyiş Əsgərov, Almas Qəhrəmanlı, Akif Qurbanov və Etibar Quliyev daxildir.**



Onların arasında Akif Qurbanov MSK-da Ümid Partiyasını təmsil edir. Noyabrın 1-də keçirilən parlament seçkilərində Ümid Partiyasının sədri İqbal Ağazadənin deputat olduğu 35 saylı Xətai üçüncü seçki dairəsindən Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə seçilib. Bu da o deməkdir ki, MSK-nın yeni tərkibində Ümid Partiyası təmsil olunmayacaq.

MSK-nın yeni tərkibində dəyişiklik edilməyəcəyi halda yalnız Akif Qurbanovun boş qalan yerinə hansısa azlıqda olan parlament partiyasının təmsilçisi təsdiqlənməli olacaq. Həmin partiyanın parlamentdə ilk dəfə olaraq təmsilçilik əldə eləyən partiyalardan biri (Vəhdət, ASDP, ADMP) olacağı istisna deyil.

MSK sədrinin kimliyinə gəlincə, məlumatlara görə, böyük ehtimalla bu dəfə də hakimiyyət bu vəzifəni Məzahir Pənahova həvalə edəcək.

Yeni Milli Məclisdə YAP 69 deputatla, VHP iki deputatla, BAXCP, ADİSP, BQP, MDHP, ASRP, Vəhdət, VBP, ADMP və ASDP isə hərəsi bir deputatla təmsil olunur. Qalan deputatlar isə bitərəflərdir.

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, seçki komissiyalarının yeni tərkibdə formalaşacağının nə vaxt baş verəcəyi ilə bağlı dəqiq informasiyaya malik deyil:** "Mən bu məsələ ilə bağlı maraqlanmışam. Məlumatıma əsasən 2010-cu ilin noyabrında keçirilmiş seçkilərdən sonra seçki komissiyalarının formalaşması 2011-ci il fevral ayının ortalarında həyata keçirilmişdi. Bu dəfə nə vaxt olacağı barədə bizdə dəqiq məlumat yoxdur. Ola bilər ki, bu dəfə də fevralda formalaşsın. Şübhəsiz ki, Vəhdət Partiyası parlament partiyası olduğu üçün seçki komissiyalarında təmsil olunacaq. Müəyyən dairə və məntəqə seçki komissiyalarında da yəqin ki, proporsional bölgü nəticəsində Vəhdət də təmsil olunacaq. Mərkəzi Seçki Komissiyasında bizim partiyanın nümayəndəsinin olub-olmayacağını isə dəqiq deyə bilmərəm. Çünki 6 yer var və parlamentdə azlıqda qalan partiyaların sayı 10-dur. İndi görək həmin 6 yerə bu 1 partiyadan hansılarının təqdim etdiyi namizədlər daxil olacaq. Əlbəttə, biz istərdik və arzu edərdik ki, Vəhdət MSK-da təmsil olunsun".

**MSK katibliyinin media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli isə bildirdi ki, qanunvericiliyə görə Mərkəzi Seçki Komissiyasının yeni tərkibi yeni seçilmiş Milli Məclis fəaliyyətə başlayandan sonra Milli Məclis tərəfindən təsdiqlənməlidir:** "Yeni Milli Məclis fəaliyyətədir və qanun Milli Məclisə istənilən vaxt Mərkəzi Seçki Komissiyasının yeni tərkibini formalaşdırmaq səlahiyyətini verir".

❑ E.SEYİDAĞA

## Gömrükdə inqilabi islahatlara qarşı kimlər çıxır?




# Oliqarxlar prezidentin qərarını sabotaj edir

### Gömrük Komitəsinin sədri brokerlərin fəaliyyətinin "qeyri-qanuni" elan olunmasını niyə mümkünsüz hesab edir?; böyük kapitala malik, daxildəki mal dövriyyəsinin əhəmiyyətli hissəsini əlində cəmləşdirən oliqarxlar asanlıqla təslim olmaq istəmirlər; bəziləri illərdir hədsiz varlanmalarına səbəb olan iqtidarın ayağının altını qazırlar...

**Ölkə iqtisadiyyatını dirçəldəcək, ölkə biznesində normal rəqabət yaradacaq və ən əsası qiymətlərin ucuzlaşmasına səbəb olacaq gömrükdə monopoliyanın ləğvi məsələsi günün ən aktual mövzularından birinə çevrilib. ANS-in həftəsonu efirə gedən "Hesabat" proqramına danışan Gömrük Komitəsinin sədri Aydın Əliyev monopoliyanın ləğvi ilə bağlı suala kifayət qədər aydın cavab verib. "Açıq bazardı, kim nə gətirirsə-gətirsin, hamı üçün eyni rəqabət yaradılıb. Sahibkar davamlı olaraq daxili bazara gətirdiyi məhsulu və ya istehsal etdiyi məhsulu sata bilərsə və s. Artıq bu, o deməkdir ki, bu, azad ticarətdir. Bu şərait hamı üçün yaradılıb. Dövlət büdcəsinə çatası vergi rüsumlarını ödəyin və daxili bazara mallarınızı çıxarın" deyə, komitə sədri bildirib.**

Belə xəbərlər var ki, malların idxalı sahəsində ayrı-ayrı şəxslərin gizli imtiyazlarının aradan qaldırılması qərarından sonra Rusiyadan və Türkiyədən gətirilən tikinti mallarının qiymətində əhəmiyyətli dərəcədə ucuzlaşma var. Azad rəqabət mühitinin yaradılması nəticəsində Azərbaycanda əhalinin ən çox narazı qaldığı ərzaq və qeyri-ərzaq mallarının qiymətlərinin də yaxın vaxtlarda aşağı düşəcəyi, bolluq yaranacağı gözlənilir.

Monopoliyanın ləğvi ilə bağlı qərar eyni zamanda manatın ikinci devalvasiyasından sonra ölkədə artan sosial gərginliyin yumşaldılmasında, hətta tamamilə aradan qalxmasında da ciddi rol oynaya bilər.

Gömrükdə inhisarçı sistemin konkret nə vaxtdan tətbiq olunduğunu söyləmək çətin olsa da, mediada 15 ildən artıqdır ki, bu mövzu davamlı müzakirə edilir. Hökumət heç vaxt monopoliya olduğunu etiraf etməyib və bu gün də bu açıq deyilmir, yalnız brokerlərdən danışılır ki, bu barədə bir qədər sonra...

İnhisarçılıqla bağlı tənqidlər ölkə başçısı İlham Əliyevin çıxışlarında son aylar daha çox səslənir. Ötən ilin fevralında manat dollara nisbətdə 30 faizdən çox ucuzlaşandan sonra inhisarçılığın ləğvi ən vacib məsələ kimi gündəmə gəlmişdi.

Dekabr ayında manat yenidən 50 faizə yaxın dəyərini itirəndən sonra bütün məhsulların qiymətinin iki dəfə qalxmasına etiraz olaraq bölgələrdə keçirilən aksiyalar gömrükdə az qala inqilab kimi dəyərləndirilən qərarın nə qədər vacib olduğunu bir daha sübut etdi.

İllərlə formalaşmış broker sistemi (monopolist sistem) bu müddət ərzində xeyli dəyişilib, hətta təkmilləşdirilib də. Gömrüyün səlahiyyətlərinə sahib çıxaraq onun funksiyasını həyata keçirən brokerlər Gömrük Məcəlləsinin 22-ci maddəsinə əsaslanaraq sərhəddə ikinci "sərhəd" yaradıblar. Aydın Əliyev sözügedən müsahibədə də bu faktı etiraf etdi və onların fəaliyyətinin "qeyri-qanuni" elan olunmasının mümkünsüzlüyünü də dedi. Yəni brokerlərin sahibkarlarla müqavilələr bağlatmağa məcbur etməklə gətirdiyi maldan götürəcəyi ehtimal olunan gəlirin ən azı 60- 70%-ni əvvəlcədən məcburi alınması faktiki "qanunla tənzimlənir". Məhz bu səbəbdən də komitə sədrinin dediklərindən belə anlaşıldı ki, Gömrük Komitəsi "brokerləri qovun" tələbini yerinə yetirə bilməyəcək. Çünki ortada qanun var. Qeyri-rəsmi məlumatlara görə, 2006-cı ildən fəaliyyət göstərən "Trans Broker" MMC-nin...5 minə yaxın əməkdaşı var! Gömrük Komitəsinin isə 3 min əməkdaşı olduğu deyilir. Bu müqayisəli rəqəmlərin özü iqtidarın necə çətin bir işə girişdiyinin əyani sübutudur. Açıq deyilməsə də, heç iqtidarın ən yüksək düzeyinə də sirr deyil ki, gömrükdəki "broker sistemi" əslində ayrı-ayrı oliqarxların maraqlarına, milyonlar qazanmasına xidmət edir. Odur ki, bu sistemin ləğvi oliqarxların maraqlarına birbaşa ciddi zərbə sayıla bilər. Bu baxımdan, təbii ki, belə bir qərarın verilməsi iqtidarın daxilində yeni narazı qüvvələr yarada bilər. Çünki böyük kapitala malik, daxildəki mal dövriyyəsinin əhəmiyyətli hissəsini əlində cəmləşdirən oliqarxlar asanlıqla təslim olmaya bilər. Onların müqavimət göstərmək, qərarın reallaşmaması üçün ən müxtəlif üsullara, hətta məşhur filmdə İmanın taxıl gizlədən Kərbəlayi İsmayıla dediyi "sabotaja" da əl atmaq imkanları var. Artıq belə bir prosesin başladığı barədə məlumatlar da gəlməkdədir. İdxala və istehsala böyük ölçüdə nəzarət edən oliqarxların öz aralarında gizli şəkildə razılığa gələrək, ölkəyə illərdir gətirdikləri müəyyən ərzaq mallarını anbarlarda "gizlətdikləri", daha doğrusu, "qiymətlər sərf etmir" bəhanəsi ilə bazara çıxarmayacaqları barədə xəbərlər yayılır. Məlumata görə, yenə də sahibkarların yüklərinin ölkəyə ən müxtəlif bəhanələrlə buraxılmaması ilə bağlı şikayətlər səngiməyib. Bu isə oliqarxların monopoliyanın ləğvinə qarşı müqavimət göstərdiklərinin daha bir sübutudur. Komitə sədri müsahibədə "brokerlərlə bacarmırıq" demədi, amma doğru olanı dedi: **"Sahibkarlar brokerlərə yox, komitəyə müraciət etsinlər".**

Prezident İlham Əliyevin çıxışlarında "natəmiz" və "həris" sözləri ilə xatırlatdığı bəzi məmurların xalqın çətin günündə də öz qazanclarını düşünməsi, üstəlik, iqtidara qarşı narazılığı körükləməsi hakimiyyətin üst qatında da ciddi narazılıq yaradıb.

Hətta belə iddialar var ki, prezident Gömrük Komitəsini də reputasiyası xeyli korlanmış MTN kimi ləğv edə, qurumun səlahiyyətlərini ya Vergilər, ya da Maliyyə nazirliklərinin tərkibinə verə, yüklərə nəzarət funksiyasını isə "ASAN xidmət"ə həvalə edə bilər.

Bəzi oliqarxlar illərdir hədsiz varlanmalarına səbəb olan iqtidarın ayağının altını qazırlar. Onların öz qazdıqları quyuya düşmə ehtimalı daha çoxdur...

❑ **"Yeni Müsavat"**

# Ev bazarında qiymətlər kəskin şəkildə enir...

### Ekspertlər bildirirlər ki, son bir neçə ildə mənzil bazarında indiki kimi durğunluq olmayıb...

**Devalvasiyalar daşınmaz əmlakın manat qiymətlərinə ciddi təsir göstərəcək. Ekspertlər bildirirlər ki, tezliklə ev bazarındakı təsir özünü daha qabarıq şəkildə büruzə verəcək.**

**Ekspert Rəşad Əliyevin** sözlərinə görə, 2014-cü ilin payızından başlayan qiymət enməsi dollar ifadəsində bir qayda olaraq fasiləsiz davam edib: "Devalvasiya zamanı eniş sərt, digər dövrlərdə demək olar ki, mülayim olub. Çoxlarını maraqlandıran isə qiymətlərin manat ifadəsində necə dəyişməsi olub. Yəni manat qiymətləri 2014-cü ilin pik həddindən nə qədər dəyişib? Fevral devalvasiyasına kimi daşınmaz əmlakların qiymətləri orta hesabla 10 faiz azalmışdı. Bahalı evlərdə azalma ümumiyyətlə çox müşahidə edilirdi. İki devalvasiya nəticəsində manat dollara nisbətdə orta hesabla 2,1 dəfə dəyərsizləşib, əvvəl orta hesabla 0,7850 idi, hazırda bazarda 1,65-lə hesablanır. Belə çıxır ki, manat qiymətləri həmin dövrdən sabit qalsaydı, onda dollar qiymətləri 58 faiz, yəni 2,3 dəfə düşməli idi. Yox, əgər manat qiymətləri düşübsə, onda belə çıxır ki, qiymət azalması dollar ifadəsində 60 faizdən çox olmalı idi. Ancaq biz belə rəqəmləri bazarda müşahidə etmirik. Müşahidə edirik ki, qiymətlər orta hesabla 2 dəfəyə kimi enib. Qiymətlər 45 faiz ətrafında, hətta bir qədər artıq aşağı düşüb. Bu isə göstərir ki, fevral devalvasiyasından sonra bu günə kimi manat qiymətləri artıb. Bundan sonra necə olacaq, bu, artıq əmlak bazarından yox, manatdan asılıdır. Dollar qiymətləri ilə isə hər şey aydındır".



Qeyd edək ki, mənzil bazarında ucuzlaşma daha aktualdır. "MBA Group" Konsaltinq Şirkətinin hesablamasına görə, 2015-ci ilin dekabrında Bakıda ilkin yaşayış mənzillərinin bir kvadratmetrinin orta təklif qiyməti 1,03 faiz azalaraq 958 dollara qədər ucuzlaşıb. Ekspertlər bildirirlər ki, fevralda mənzil bazarında ciddi dəyişikliklər baş verəcək. Belə ki, mənzil və ya obyektlərin dollarla satışa çıxarılacağı gözlənilir. **Ekspert Ramil Osmanlının sözlərinə görə, manatın ikinci devalvasiyasından dərhal sonra qiymətlər artırılıb. Lakin bahalaşma cəmi bir neçə gün davam edib:** "Hazırda mənzil bazarında durğunluq yaranıb. Hətta dəyərindən aşağı qiymətlə təklif edilən mənzillər də satılmır. Aparılan müşahidələrə görə, gələn aydan mənzil bazarında ciddi dəyişikliklər olacaq. Əhalinin manata etibarı azaldığı üçün 2007-2008-ci ildə olduğu kimi mənzillər dollarla təklif olunacaq. Hazırda yalnız yeni tikililərdə cüzi qiymət artımı müşahidə edilir. Köhnə tikililərdə isə mənzillər bahalaşmayıb. Ötən ilin əvvəlinə nisbətən qiymətlər ucuz olsa da, alqı-satqı yoxdur. Son bir neçə ildə mənzil bazarında indiki kimi durğunluq müşahidə edilməyib. Hələlik alıcılar gözləmə mövqeyindədirlər".

❑ **RÖYA**


## "Texnikabank"dan yenilik

**Azərbaycan bank sektorunda ilk olaraq, "Texnikabank" ASC-nin yeni və unikal hesab edilən "TB24" adlı Məsafəli xidmətin internet-bankçılıq sistemi tam şəkildə müştərilərin ixtiyarına verilib.**



"TB24" internet-bankçılıq sistemi müasir tələblərə cavab verərək, Azərbaycanda mövcud olmayan potensialı ilə seçilir. 24 saat iş prinsipi ilə fəaliyyət göstərən sistem 18 istiqamət üzrə 75 xidməti birləşdirməklə, demək olar ki, bütün bank əməliyyatlarını əhatə edir. Əlverişli tarifləri ilə seçilən xidmətlərdən hər bir müştəri faydalana bilər.

Beləliklə, fiziki və hüquqi şəxslər banka gəlmədən istənilən zaman bank xidmətlərindən istifadə imkanını qazanır.

Bu gün istifadəyə verilmiş internet-bankçılıq sisteminə artıq ilk müştərilər qoşulub və bundan məmnunluğunu ifadə edirlər.

Əlavə olaraq qeyd edək ki, smartfonların artımını nəzərə alaraq, "Texnikabank" yaxın zaman ərzində iOS və Android platformaları üçün rahat idarəetmə ilə seçilən "TB24" sistemi üçün mobil proqramını da istifadəyə verəcək.

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016



# Dılğırlar və miskinlər

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan xalqının müdrik ata sözlərindən biri də quyu qazmaqla bağlıdır: "Özgəyə quyu qazan özü düşər". YAP qurucularından biri, uzun illər rejimə sədaqətlə qulluq eləmiş Eldar Sabiroğlunun indi düşdüyü durumu həmin ata sözü gözəl təsvir edir. Eldar müəllim məhz ata olaraq bu ata sözünün zərbəsi altındadır: rejim onun oğlunu tutub zindana salıbdır. Elə bil ömrünü qoyub maşın qayırmısan, bu maşının konstruktor bürosunda işləmisən, bir gün isə o maşın öz ovladını basdalayıb.**

Onun keçmiş prokurorluq işçisi olan oğlunun böyük ehtimalla günahı yoxdur. Ancaq bunu kimə deyəsən? Üstəlik, Eldar müəllim hələ də bu qazdığı quyunun vedrəsindən bərk-bərk yapışıb, ümid edir ki, rəhbərliyin bu repressiyalardan xəbəri yoxdur. Hər halda, özünü belə göstərir.

Mən bunu bir dəfə də yazmışam: əslində avtoritarizm hamını udan əjdahadır, onun xeyrini heç kim görmür. Sadəcə, bizə dəyən zərbələr ağrıtmır, çünki biz bu avtoritar baltanın sapı olmamışıq. Kim olubsa, ona qat-qat yandırıcı, öldürücüdür. Məhz bu baxımdan diqqət eləsəniz rejimin qurucuları türmədə daha tez sınırlar, bəzən intihar edirlər. Ağır haldır. Həyatını necə boş, mənasız yaşadığını anlayaraq dünyadan köçən neçə yapistin şahidləriyik: Sirus Təbrizli, Rafael Allahverdiyev, Anar Məmmədxanov...

Yeri gəlmişkən, adını çəkmək istəmirəm, son vaxtlar belə rejim qulluqçusu, nəzm düzəldənlərdən biri ölüb. *(Azərbaycan xalqının bir faciəsi də elə hər çərənçiliklə qafiyə qoşana şair adı yapışdırmasıdır).* Adamın bütün şüurlu həyatı mədhiyyə yazmaq, hakimiyyətə yarınmaq, bununla mənsəb və sərvət əldə etmək üstündə qurulub, ancaq indi bəziləri onu elə təsvir edirlər ki, deyərsən ölən Şekspirdir. Hətta qaz idarəsinin ömründə bir qazı kəsilənin işinə yaramayan işçisi də saz götürüb mərhumu ağlamışdır. Ağlasınlar, buna iradım yoxdur, ancaq şitini çıxarmasınlar. Ta kimsə "ölünü ya təriflə, ya da haqqında danışma" deyə bir axmaq fikir ortaya atıbsa, biz bunun ikinci hissəsini niyə unuduruq? Danışmayın. Ayıbdır. Nə qədər danışsanız da motal pendiri mosarella pendirinə çevrilə bilməz. Bunun üçün istehsal prosesi ayrı cür getməlidir.

Ötən əsrin 80-ci illərində belə bir "xalq şairi" var idi, çox qocalmışdı. Stalin repressiyaları zamanı gənc şairlərin üzünə yalandan durub onları məhv edən həmin tip öləndə kimsə çox orijinal aforizm yazmışdı: "Filankəs o qədər yaşadı ki, axırda az qala yaxşı adam olacaqdı". Doğrudan da Azərbaycan cəmiyyətinin yaddaşı yoxdur, illər keçdikcə çox şeyləri unudur, qorxaq qəhrəmana, yaltaq cəsura, iş adamı işbaza çevrilə bilir.

Axırıncını zarafat üçün yazdım. Son günlərin populyar ifadələrindən biridir: "İşbazlar süni qiymət artımına yol verir". Elə dünənki müşavirədə də prezident "Təxribatçılar, işbazlar, dəllallar cəzalandırılacaq" demişdir.

Etiraf edim ki, bu işbaz sözü heç vaxt leksikonumda olmayıb, o üzdən bunun mənasını (anlamını) axtardım. Sən demə, dilimizin izahlı lüğətinə görə işbaz - "özünü yalandan işgüzar göstərən adam" deməkdir. Buna görə kimisə niyə cəzalandırırsan? Dövlət qulluğunda olmayan, vergilərlə maliyyələşməyən hər kəsin ixtiyarı var ki, özünü yalandan işgüzar göstərsin. Bunun başqalarına qəti dəxli, istisi-soyuğu ola bilməz.

Yaxud dəllallıq iqtisadiyyatın önəmli sahələrindən biridir. Marketinqdə maklerlərin, vasitəçilərin rolu böyükdür. Onlar satıcı ilə alıcı arasında münasibəti qurur, yeni bazarlar yaradırlar. Elə yenə izahlı lüğətə üz tutsaq dəllal - alıcı ilə satıcı arasında vasitəçilik edən şəxs deməkdir. Hər şey bir yana, indi biz ev maklerlərini də tutacağıq?

Lüğətə baxarkən rastıma bəzi sözlər çıxdı, məncə, növbəti iclaslarda bu terminlərdən yararlanmaq daha məqsədyönlü olardı. Örnək üçün, niyə belə deməyək: "Bəzi dılğırlar, miskinlər, həşəratlar devalvasiyadan sonra əhalinin cibinə girirlər". Dılğır - lüğətə görə "heç bir işə yaramayan, vecsiz adam" deməkdir. Miskin - bacarıqsız, əlindən heç bir iş gəlməyən, aciz adama deyilir. Həşərat - dəyərsiz, zərərli adamlar mənasında işlənir. Görün nə qədər dəqiq iqtisadi mənzərə açırlar!

İndi söz bacarıqlı, dəyərli, hər işə yarayan ələqədar təşkilatlarındır.

# Dünyanın gözü Davosda

## Forumun iqtisadi əhəmiyyəti nədir?

**20-23 yanvar tarixlərində İsveçrənin Davos şəhərində 46-cı Dünya İqtisadi Forumu baş tutacaq. Azərbaycan prezidenti İlham Əliyev də forumda iştirak üçün Davosa gedəcək.**




Davos Forumu bu dəfə "Dördüncü sənaye inqilabı" devizi altında keçiriləcək. Forumda dünyanın 100-dən artıq ölkəsindən 2500-ə yaxın qonaq, o cümlədən prezidentlər, baş nazirlər, iri korporasiyaların rəhbərləri iştirak edəcəklər.

Forumda Azərbaycan prezidenti ilə yanaşı, ABŞ vitse-prezidenti Cozef Baydenin, dövlət katibi Con Kerrinin, Böyük Britaniyanın baş naziri Devid Kemeronun, Kanada baş naziri Jastin Trudeaunun, İran xarici işlər naziri Cavad Zərifin, Yunanıstan baş naziri Aleksis Tsiprasın, Türkiyənin baş naziri Əhməd Davudoğlu və digər dövlət rəsmilərinin də iştirakı təsdiqlənib.

Məlumat üçün qeyd edək ki, Davos İqtisadi Forumu (DİF) isveçrəli professor Klaus Şvebsin təşəbbüsü ilə 1971-ci ildə yaradılıb. Klaus Şvebs 1971-ci ildə İsveçrənin Davos şəhərində Avropanın aparıcı 450 şirkətinin rəhbərlərini toplayaraq, dünya iqtisadiyyatının perspektivlərini müzakirə etmək və ümumi strategiya hazırlamaq məqsədilə birinci simpoziumu keçirib. 70-ci illərin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri dəvət edilməyə başladı. Forum 1987-ci ildən etibarən Dünya İqtisadi Forumu (DİF) adlandırıldı.

Davos Forumu ənənəvi olaraq hər ilin yanvar ayının sonunda keçirilir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların, elm adamlarının, nüfuzlu siyasətçilərin, iqtisadçıların, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 1979-cu ildən etibarən DİF-in mütəxəssisləri tərəfindən "dövlətlərin qlobal rəqabətə davamlılığı" adlı məruzə hazırlanır. Bu məruzələrdə dünyanın 100-dən çox dövləti iki əsas göstərici əsasında - potensial inkişaf və rəqabətə davamlılıq indeksi üzrə qiymətləndirilir.

**Davos Forumunda iştirak etmiş iqtisadçı ekspert Vüqar Bayramov qeyd edir ki, Davos İqtisadi Forumu forumdan daha çox tribuna rolunu oynayır:** "Dünyanın aparıcı iş adamları, müxtəlif ölkələrin prezidentləri və baş nazirləri burada bir araya gəlir. Davos yeganə forumdur ki, həm rəsmiləri, dünya liderlərini, həm iş adamlarını, həm də vətəndaş cəmiyyəti nümayəndələrini bir araya toplamaq imkanına malikdir. Bu baxımdan Davos müzakirələr, müxtəlif ölkələrdən investisiyaların cəlb edilməsi və ölkənin özünün potensialının təqdim edilməsi baxımından olduqca vacib bir tribunadır. Hər bir ölkə çalışır ki, həmin tribunadan istifadə etsin. Azərbaycan da birmənalı şəkildə Davosda iştirak etməkdə maraqlıdır. Azərbaycan Davos İqtisadi Forumunda ölkə rəhbəri səviyyəsində iştirak edir. Bu da ölkəmizin DİF-ə verdiyi önəmlə bağlıdır".

**Ekspertin sözlərinə görə, Davos İqtisadi Forumunda qəbul edilən qərarlar tövsiyə xarakterlidir və hər hansı hüquqi qüvvəsi yoxdur:** "Yəni bu forum iqtisadiyyatda tövsiyə xarakterli qərarları və meylləri müəyyənləşdirir. Davosun qəbul etdiyi qərar, forumda əldə edilən razılaşmalar heç də dünya iqtisadiyyatında tətbiq edilən qərarlar deyil. DİF-in özünün bəyannaməsi, deklorasiyası olur, lakin o, konkret qərarlar qəbul etmir. Müəyyən məsələlər Davosda razılaşdırıla bilər, tövsiyə xarakterli qərarlar qəbul edilə bilər, amma DİF-in nəticələri tövsiyə xarakterli deklorasiya formasında olur. Ona görə də Davos İqtisadi Forumunun keçirilməsi dünya iqtiadiyyatında yeni bir mərhələnin başlanması kimi qeyd olunmamalıdır. Bu forumda mövcud iqtisadi vəziyyət qiymətləndirilir və bundan çıxış edərək dünya iqtisadiyyatında dəyişən meyllərlə bağlı həm biznesə, həm dünya liderlərinə tövsiyələr verilir".




**Vüqar Bayramovun fikrincə, hazırkı iqtisadi şəraitdə Azərbaycan və digər iştirakçı ölkələr investisiyaların cəlb edilməsi və iqtisadi tərəfdaşlığın qurulması üçün Davosa bir imkan kimi baxırlar:** "Burada dünya liderlərinin görüşmək, istər siyasi, istərsə də iqtisadi məsələlərdə diskussiya aparmaq imkanı var. İş adamları ilə aparılan müzakirələr də xarici investisiyaların cəlb edilməsi baxımından vacibdir. O səbəbdən düşünürəm ki, əvvəlki illərdən fərqli olaraq bu dəfə baş tutacaq DİF Azərbaycan üçün daha əhəmiyyətlidir. Çünki ölkəmizin xarici inbvestisiyaya daha çox ehtiyacı var. Azərbaycan indiki məqamda Davosdan bir tribuna kimi istifadə edərək iş adamlarını investisiya qoymağa inandırmağa çalışmalıdır. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafı eyni zamanda investisiya qoyuluşlarının həcmindən də asılıdır. Əgər ölkəyə xarici investorları cəlb etmək mümkün olsa, o zaman hazırki problemləri də daha sürətlə aradan qaldırmaq mümkün olar.

**Davosda iştirak prosedurlarına gəlincə, ekspert bildirdi ki, iştirakçılar əsasən dəvət əsasında müəyyənləşdirilir:** "Lakin mətbuat və müəyyən qurumlar üçün qeydiyyat tələb olunur. Bəzi koteqoriyalar, əsasən də biznes və iş adamları üçün ödənişlər də tələb olunur. Lakin bu, vətəndaş cəmiyyətinə və mətbuata tətbiq edilmir. Yəni DİF bir platformadır və onu yaradanların məqsədi həm də bu fəaliyyətdən gəlir əldə etməkdir. Çünki bu müstəqil forumdur və bu forumun təşkilatçıları insanları bir araya yığmaqla həm də gəlir əldə etməyi planlaşdırırlar. Burada gəlirlərin qazanılmasında əsas məqsəd xərclərin və işçilərin əmək haqlarının ödənilməsidir. Forum özü gəlir əldə etmir, mənfəət məqsədi ilə təşkil olunmur. Ödənişlər ona görə tətbiq olunur ki, forum öz xərclərini qarşılaya bilsin".

İnternet üzərindən həyata keçirdiyimiz axtarışlardan məlum oldu ki, ödənişlər əsasən dünyanın iri korporasiyaları, müəssisələri, iri biznes qurumları üçün nəzərdə tutulur. Səbəb isə odur ki, onlar Davosa qatılmaqla həm də yeni tərəfdaşlar tapa, yeni investisiya yatırımları üçün danışıqlar aparmaq üçün imkan qazanırlar. Bu il Davosa qatılmaq üçün təxminən 31 min dollar ödəmək tələb olunur. Bunun üçün öncə WEF-ə (World Economic Forum- Dünya İqtisadi Forumu) üz olmaq lazımdır. Qeydiyyat forumun http://www.weforum.org/ ttp://www.weforum.org/ veb saytı vasitəsilə həyata keçirilir.

❑ Nərgiz LİFTİYEVA

**Qərbin İran üzərindən bir sıra sanksiyaları götürməsi dünyanın iqtisadi və siyasi həyatında çox ciddi gəlişmələrə səbəb olub. İllərdən bəri davam edən İran-Qərb qarşıdurmasının geridə qalması, qlobal böhran şəraitində Tehrana qarşı beynəlxalq sanksiyaların qaldırılması əksər ölkələr tərəfindən, o cümlədən İrandan alqışlarla qarşılanıb.**




# Tehran-Qərb anlaşması: qalib kim, uduzan kim?

## Rəsmi Bakı İrana qarşı sanksiyaların götürülməsindən məmnundur; razılaşmanın Azərbaycan dövləti, İrandakı soydaşlarımız və Güney məsələsi üçün də önəmi var...

Qeyd edək ki, yanvarın 16-da BMT-nin nüvə agentliyi elan edib ki, Tehran iyulda imzalanmış razılaşmanın öhdəliklərinə əməl edib və sanksiyalara son verilib. Bununla da Avropa Birliyi İrana bütün iqtisadi və maliyyə sanksiyalarının qaldırıldığını elan edib. Vaşinqton da öz növbəsində İrana qarşı bank, poladtökmə, gəmiçilik və digər sahələrdə sanksiyaları rəsmən ləğv edib. İran həmçinin beş amerikalını azad edib. Onların içində "Washington Post"un müxbiri Jason Rezaian da var.

Müsəlman qonşumuzda toy-bayram və böyük qalibiyyət kimi qarşılanan bu hadisəyə reaksiyasında prezident Həsən Ruhani deyib ki, 17 yanvar sazişi İran iqtisadiyyatı üçün "dönüş nöqtəsidir" və ölkənin inkişafı üçün bir fürsətdir.

ABŞ Prezidenti Barak Obama isə deyib ki, razılığa əsasən İran nüvə silahına malik olmayacaq və əgər Tehran Qərbi aldatmağa cəhd etsə, bunun qarşısını almaq üçün bir sıra tədbirlər işə salınacaq. Obama əlavə edib ki, insan haqlarının pozulması, terrorizmə dəstək və ballistik raket proqramından dolayı, İrana qarşı sanksiyalarımız davam edəcək. Yeri gəlmişkən, ABŞ Maliyyə Nazirliyi 18 yanvarda İrana qarşı yeni sanksiya qərarını verib. Yeni sanksiyalara görə, raket proqramı ilə bağlılığı olan 11 hüquqi və fiziki şəxs ABŞ-ın bank sistemindən istifadə edə bilməz.

İrana qarşı sanksiyaların ləğvi dərhal birjaların fəaliyyətinə təsir göstərib. London qitələrarası birjasında Brent markalı neftin qiyməti 3,5 dollar ucuzlaşaraq 27,96 dollar olub.

**Bir sıra müşahidəçilər yeni situasiyanın Azərbaycanın faydasına olduğu barədə şərhlər verir, lakin əksini düşünənlər də var. Məsələn, politoloq Fərrux Məmmədov hesab edir ki, İrana qarşı sanksiyaların ləğvi və İranın yenidən dünya enerji bazarına qayıtması Azərbaycanın strateji mövqeyini xeyli zəiflədəcək.** "Artıq Azərbaycan, sadəcə, Cənubi Qafqaz ölkəsidir. Digər tərəfdən, İran Əfqanıstana tranzit ölkə olaraq qapılarını açmağa hazır olduğunu Amerikanın diqqətinə çatdırıb və hətta yeni taarif qiymətlər təklifi belə edib. Bu təklif Azərbaycanın tətbiq etdiyi qiymətlərdən dəfələrlə azdır. Amerika hazırda bu təklifi də gözdən keçirir. NATO üçün yüklərin daşınması və ucuz qiymətə, hətta heç bir siyasi şantaj olmadan. Bu, önəmlidir"- ekspert bildirir.

**Politoloq Şahin Cəfərli isə situasiyanı şərh edərkən bildirdi ki, nə qədər təzadlı səslənsə də, bu anlaşma həm ABŞ-ın, həm də İranın qələbəsi kimi qiymətləndirilə bilər:** "Obama administrasiyası İranın nüvə proqramı kimi ciddi beynəlxalq problemi siyasi yolla həll edərək ciddi diplomatik uğura imza atdı. Diplomatiyanın alternativi hərbi yol idi ki, bu variantın seçilməsi bölgə üçün fəlakətə səbəb ola bilərdi. Digər tərəfdən, İrana qarşı hərbi koalisiyanın formalaşdırılması Vaşinqton üçün elə də asan vəzifə olmayacaqdı. Müharibə həm də ABŞ üçün böyük maliyyə hesabına başa gələcəkdi, bu isə ölkə iqtisadiyyatına mənfi təsir edəcəkdi. Bundan başqa, Səddam Hüseyn dönəmindəki İraqdan fərqli olaraq, İranın müqavimət imkanlarının daha yüksək olması da qeyd olunmalıdır. Düzdür, İran ABŞ və İsraillə müqayisədə hərbi texnologiyalar baxımından xeyli geri qalır, lakin hər halda, cavab zərbələri endirmək potensialına malikdir".

**Ş.Cəfərli şübhə etmir ki, Obama və onun komandası bütün yuxarıda qeyd olunan məsələləri nəzərə alaraq hərəkət edib:** "Ümumiyyətlə, Barak Obama Corc Buşdan fərqli olaraq, xarici siyasət problemlərinin güc tətbiq etmədən həllinə üstünlük verdi və İranla bağlı siyasət də məhz bu strategiya çərçivəsində həyata keçirildi. İrana gəldikdə isə bu ölkənin də gərginlik siyasətindən və nüvə silahına sahib olmaq inadından vaz keçmək cəsarətini özündə tapmasını - ən azı bu mərhələdə - yüksək qiymətləndirmək lazımdır. Tehran bu siyasətin perspektivsiz olduğunu başa düşdü, anladı ki, onun nüvə silahına malik olmasına imkan verilməyəcək, sanksiyalar və mümkün müharibə isə ölkəni fəlakətə sürükləyə, daha uzun illər inkişafdan saxlaya bilər. Bu gün İran iqtisadiyyatının, sənayesinin texnoloji yenilənməyə hava-su kimi ehtiyacı var, texnologiyalar isə Qərbin əlindədir. Qonşu ölkə bunu nəzərə alaraq konfrontasiya xəttindən geri çəkildi və diplomatiyaya üstünlük verdi".

**Politoloq onu da bildirdi ki, indi beynəlxalq embarqoların ləğvi nəticəsində İran öz iqtisadiyyatını inkişaf etdirmək, sərmayələr cəlb etmək, müasir texnologiyaları ölkəyə gətirmək, Qərb banklarında blok edilmiş maliyyə vəsaitlərini öz ehtiyacları üçün yönəltmək fürsəti qazanıb:** "Təsadüfi deyil ki, sanksiyalar ləğv olunar-olunmaz İran Fransanın "Airbus" şirkəti ilə 114 ədəd sərnişin təyyarəsinin alqı-satqısına dair müqavilə imzalayıb. Avropanın "Total" və "Shell" kimi iri enerji şirkətlərinin təmsilçiləri isə dərhal Tehrana səfər edib. Bu əməkdaşlıq daha da genişlənəcək. Yeni situasiya İran daxilində sosial gərginliyi azaltmağa da imkan verəcək. Lakin onu da qeyd edək ki, ABŞ (Qərb) - İran münasibətlərində yeni mərhələnin startı verilsə də, tərəflər arasında problemlər qalır və qalmağa davam edəcək. Mən daha əvvəl də qeyd etmişdim ki, İranın daha da güclənərək bölgədə dominant rol oynaması elə də asan olmayacaq. Bu dövlətin bölgədə İsrail, Səudiyyə Ərəbistanı kimi ənənəvi düşmənləri, Türkiyə kimi güclü rəqibi var. Bu dövlətlər İran ətrafındakı situasiyanı diqqət və həssaslıqla izləyir. Yaranmış durum onları bir-biri ilə yaxınlaşmağa sövq edir və artıq bu proses başlayıb. ABŞ da İranın güclənməsində maraqlı deyil, çünki bu halda Tehranın regional ekspansiya iştahı artacaq və İsrailin təhlükəsizliyinə təhdid güclənəcək. Təsadüfi deyil ki, İrana qarşı sanksiyaların ləğvi elan olunan gün ABŞ bu ölkəyə qarşı yeni sanksiyalar tətbiq etdi. Yeni sanksiyalar İranın ballistik raket proqramı həyata keçirməsi ilə bağlıdır. Bundan başqa, terrora dəstək, insan haqları pozuntuları ilə əlaqədar daha əvvəl tətbiq olunmuş sanksiyalar qüvvədə qalır".

### Politoloq: "Qərb - İran münasibətlərində yeni mərhələnin startı verilsə də, tərəflər arasında problemlər qalır..."

Qeyd edək ki, İranın ən ağır günlərində rəsmi Bakı İrana qarşı öz ərazisindən üçüncü qüvvələrin istifadəsinə imkan verilməyəcəyi barədə vədinə sonadək sadiq qaldı və 40 milyona yaxın Azərbaycan türkünün yaşadığı müsəlman qonşumuz bunu yaxşı bilir. İranın öz neftini sərbəst şəkildə dünya bazarına çıxartması neft ölkəsi olaraq Azərbaycana mənfi təsir edəcək, bu, şəksizdir. Ancaq Azərbaycan investorları İrana yatırım qoymaq üçün əlavə imkanlara sahib olur. Eyni zamanda qonşu ölkədə savaş təhlükəsinin sovuşması on milyonlarla soydaşımızın həyatı naminə də çox mühüm hadisədir. Rəsmi Bakı da İran-Qərb anlaşmasından məmnunluğunu ifadə edib.

**"Azərbaycan uzun müddət aparılan danışıqlar nəticəsində əldə edilən razılaşmaya əsasən Qərbin İran üzərindən bir sıra sanksiyaları götürməsini alqışlayır". Bunu Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov açıqlamasında deyib. PA rəsmisi qeyd edib ki, Bakı, ümumiyyətlə, dövlətlərarası münasibətlərdə müxtəlif səbəblərlə ölkələrə qarşı sanksiyaların tətbiq edilməsini uğurlu və ədalətli addım saymır:** "Sanksiyanın nəticələri bütün hallarda onun tətbiq olunduğu ölkənin əhalisinin yükünə çevrilir. Bu, eyni zamanda müasir beynəlxalq aləmdə dövlətlərarası, silizasiyalararası anlaşmaya, dialoqa və əməkdaşlığa mane olur, istər-istəməz müəyyən gərginlik yaradır. İran İslam Respublikası ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev hələ 2006-cı ilin aprelində Vaşinqtona ilk rəsmi səfəri zamanı Ağ Evin qarşısında jurnalistlərlə brifinqdə sanksiyaların tətbiqinə etiraz edərək bəyanat vermişdi".

**"Bu müsbət prosesin Azərbaycan və İran arasında qarşılıqlı faydalı tərəfdaşlığın daha da inkişafına əlavə təkan verəcəyinə əminliyimizi bildiririk". Bu isə Azərbaycan XİN-in son bəyanatındandır.**

Tehrandan da reaksiya gəlib. "Biz dost və qonşu ölkələr, müsəlman ölkələri, xüsusən Azərbaycan Respublikası ilə ikitərəfli əməkdaşlığı daha çox inkişaf etdirməkdə maraqlıyıq",- deyə, İran sözçüsü Hüseyn Cabiri Ənsari keçirdiyi mətbuat konfransında APA-nın sualını cavablandırarkən deyib.

**Şahin Cəfərli İran-Qərb anlaşmasının Azərbaycana təsirlərindən danışarkən dedi ki, bölgəmizdə və xüsusən çoxlu sayda soydaşımızın yaşadığı qonşu ölkədə müharibə təhlükəsinin sovuşması bizim üçün çox müsbət hadisədir:** "Müharibə baş versə, bunun mənfi təsirlərinə məruz qalan ölkələrdən biri biz olacaqdıq. Bundan başqa, sanksiyaların ləğvi İranla iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə şərait yaradır, Azərbaycan da bu durumdan yararlana bilər. Mənfi təsirlər sırasında isə öncə onu qeyd etmək olar ki, İranın Avropa enerji bazarına qayıtması nəticəsində neftin qiymətinin yaxın perspektivdə yüksəlməsi ehtimalı aradan qalxıb. İran qarşıdakı aylarda və illərdə texnologiyalarını yenilədikcə hasilatı və ixracı daha da artıracaq, bu isə təklifin tələbatı üstələdiyi hazırkı durumun davam edəcəyi mənasına gəlir. Başqa bir məqam İran probleminin həlli nəticəsində Azərbaycanın Qərb üçün geostrateji önəminin müəyyən qədər azalmasından ibarətdir. İrana qarşı mümkün müharibədə Azərbaycan ərazisi logistika, kəşfiyyat kimi məqsədlər baxımından önəm qazanacaqdı. Bu, aradan qalxdı. Azərbaycan diplomatları Qərbdə etdikləri çıxışlarında, keçirdikləri görüşlərdə Azərbaycanın Rusiya və İran kimi aqressiv dövlətlərin əhatəsində yerləşdiyini, bu səbəblə Qərbin ölkədə demokratiya, insan haqları problemlərinə anlayışla yanaşmasının lazım olduğunu vurğulamağı xoşlayırdılar. İndi bu arqumentin də bir ayağı zəiflədi. Lakin bütün bunlara rəğmən, Azərbaycan Qərb üçün önəmini itirməyib, sadəcə olaraq, rəsmi Bakı istər daxili, istərsə də xarici siyasətinə yeni situasiyanın şərtlərinə uyğun dəyişiklik edərək daha çevik siyasət yeritməyə başlamalıdır".

***

**ABŞ və İran arasında "soyuq müharibə"nin geridə qaldığı şəraitdə İrandakı Azərbaycan türkləri üçün hansı perspektiv açıldığı barədə qəzetimizə açıqlama verən "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirdi ki, İran üzərindən sanksiyaların götürülməsi, diplomatik əlaqələrin bərpası dünya çapında və Orta Şərq problemlərinin həllində yeni mərhələdir:** "İranın şər düşərgəsindən uzaqlaşması və mütərəqqi demokratik dünya ilə hesablaşması və yaxınlaşması müsbət hadisədir. Bu, İranın tədricən liberallaşmasında, insan hüquq və azadlıqları prinsiplərinin bərqərar olmasında pozitiv rol oynaya bilər. Güney Azərbaycan üçün öz müqəddəratını təyinetmə hüquqi mexanizminin həyata vəsiqə qazanmasına da şərait yaratmış olar. Bu mütərəqqi dəyişikliklər üçün əsas şərtlərdən biri və birincisi şimali Azərbaycanla ABŞ-ın strateji müttəfiqliyinin bərpa olunması və Türkiyə-ABŞ-AB münasibətlərinin artan xətt üzrə inkişaf etməsidir. Təbii ki, Güney milli təşkilatlarının israrı və beynəlxalq hüququn imkanlarından nə dərəcədə istifadə etməsi də ilkin şərtlərdən biridir".

**Bəs bu situasiya İran zindanlarında olan güneyli fəalların azadlığa çıxmasını şərtləndirəcəkmi? Z.Məmmdəli:** "Bu problemin həlli də həm Güney, həm Quzey, həm də Avropada olan milli qurumlarımızın fəaliyyət ardıcıllığından asılıdır. İran zindanlarında yüzlərlə milli siyasi dustaqların olması və yüzlərlə fəalın isə gündəlik təqib olunması faktdır. Təəssüf ki, obyektiv gerçəkliklər ucbatından Şimali Azərbaycan bu problemin ictimailəşməsi və soydaşlarımızın hüquqlarının qorunmasında passivdir. Milli təşkilatlarımız bütün resursları ilə Güney Azərbaycanın yanında olmalıdır. ABŞ -İran yaxınlaşması, məncə, mövcud təşkilatların bu istiqamətdə fəallaşmasını stimullaşdıracaq. ABŞ gözəl anlayır ki, Güney Azərbaycan problemi həll olunmamış İran rejimi regionun qorxulu dövləti imicini qoruyacaq ki, bu da regionda milli maraqların təhdid mənbəyidir".

**İrandan gələn digər xəbərə görə, Qərblə nüvə razılığına gələndən sonra beynəlxalq sanksiyalardan xilas olan İranda sosial şəbəkələrlə bağlı qadağalarda da dəyişiklik edilib. Belə ki, bəzi istifadəçilər sosial şəbəkələrə qoyulan qadağanın aradan götürüldüyünü bildiriblər.**

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# “Böhran müxalifətə işləyir”

## Pənah Hüseyn: “Ciddi siyasi, iqtisadi islahatlar aparılmasa, növbəti mərhələdə siyasi müxalifətin də prosesə ciddi şəkildə qoşulması qaçılmazdır”

**“Ölkədəki iqtisadi böhran müxalifətin elektoral və sosial bazasını artırır, müxalifət partiyalarının mövqelərini möhkəmləndirir”. Bu barədə “Yeni Müsavat”a açıqlamasında Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirib. Onun dediyinə görə, rayonlarda etiraz aksiyalarının müxalifət tərəfindən təşkil edilməməsinə baxmayaraq, ya bu proses özünün yeni təşkilatlanma formasını tapacaq və öz liderlərini ortalığa qoyacaq, ya da indiki siyasi müxalifətin idarəçiliyini və təşkilatçılığını qəbul edəcək.**


Pənah Hüseyn

Ən çox ehtimal olunan da budur. Çünki kortəbii və spontan şəkildə bu vəziyyət uzun müddət davam eləyə bilməz. Yəni özünün mütləq siyasi formasını tapacaq: “Əlbəttə ki, ölkədə ciddi siyasi, iqtisadi islahatlar aparılsa, o cümlədən siyasi müxalifətlə anlaşmaya gedilsə, bu, fərqli bir situasiya yaradar, etiraz aksiyalarının miqyası genişləndikcə bunun fəsadları da müşahidə olunmaz. İstənilən halda siyasi müxalifətin ən tez zamanda proseslərə qoşulacağı və prosesə siyasi rəhbərlik edəcəyi qanunauyğunluqdur”.

**“Etiraz dalğasının özünün içindən yeni müxalifət, yeni liderlər çıxacağı, ənənəvi müxalifət partiyaları və liderlərinin ya kənarda qalacağı, ya da sadəcə prosesdə bir detal funksiyası daşıyacağı barədə iddialar nə dərəcədə əsaslıdır” sualına P.Hüseyn belə cavab verdi:** “Siyasi müxalifət bu proseslərdən narahat görünmür. Bu proseslərin onları kənarda saxlayacağından da narahatlıq ifadə eləmir. Bu narahatlığın olmaması xeyli əsaslıdır. Çünki əvvəllər də digər başqa ölkələrdə baş vermiş proseslərdən bəllidir ki, ümumiyyətlə bir qanunauyğunluq mövcuddur ki, proseslər siyasi mərhələyə keçəndə bir qayda olaraq daha mütəşəkkil şəkildə təşkilatlanmış təcrübəli siyasi qüvvələr öndə olur”.

**“Müxalifət bölgələrdəki etiraz aksiyalarını təşkil etmədiyini israrla bəyan eləyir. Sizcə, əslində belə vəziyyətlərdə müxalifət önə çıxmalı deyilmi” sualını isə AXP sədri belə cavablandırdı:** “Daha çox iqtidar maraqlı görünür ki, cəmiyyətdəki kütləvi etirazları siyasiləşdirsin və bunun səbəbini müxalifətin fəaliyyəti ilə bağlasın, problemləri siyasi pərdəyə bürüsün. Amma problemlərin kökü hazırda ölkədə yaranmış sosial-iqtisadi vəziyyətlə bağlıdır. Etirazlar vəziyyətin çox ciddi olduğunun göstəricisidir. Müxalifət etirazların təşkilatçısı olmadığını ona görə cidd-cəhdlə bəyan edir ki, iqtidar yerlərdə əhalinin etirazlarını müxalifətlə bağlayıb siyasi müstəviyə çəkə bilməsin. İqtidar isə vaxt udmağa çalışır, etiraz aksiyalarında müxalifəti günahkar elan edir. İqtidar bununla müxalifətin siyasi çəkisinin artmasının fərqində olsa da buna gedirsə, deməli, iqtidar üçün daha təhlükəli məsələləri gizləməyə çalışırlar. İqtisadi böhranlar bir qayda olaraq siyasi sarsıntılarla müşahidə olunur. Ölkədə ciddi siyasi, iqtisadi islahatlar aparılmasa, növbəti mərhələdə siyasi müxalifətin də prosesə ciddi şəkildə qoşulması qaçılmazdır. Hətta siyasi müxalifət istəsə belə bundan qaça bilməz”.

“Meydana müxalifət nə vaxt çıxacaq” sualına isə P.Hüseynin cavabı belə oldu ki, müxalifətin mövqelərinin güclənməsi prosesi gedir. Bunun real nəticələri özünü göstərəcək.

❑ **E.SEYİDAĞA**

# Dollar kreditlərində güzəşt

## Vahid Əhmədov: “On min dollarıdək kreditlərin əvvəlki- 1,05-lik məzənnə ilə qaytarılmasını həm Mərkəzi Bankla razılaşdırmışıq, həm də hökumətlə”

**Əhalinin dollar kreditlərinin həlli istiqamətində addımların atılacağı yenidən gündəmdədir. Bildirilir ki, dollar kreditlərinin devalvasiyadan əvvəlki məzənnə ilə qaytarılması mümkün ola bilər. Deputat Vahid Əhmədov da azadlıq.org-a bildirib ki, dollarla götürülən kreditlərlə bağlı bu məsələ faktiki olaraq razılaşdırılıb:**

“Biz bunu həm Mərkəzi Bankla razılaşdırmışıq, həm də hökumətlə. Bunun maliyyə mənbəyi ilə bağlı məsələlər həll edilməlidir. Məncə, maliyyə məsələsi problem olmamalıdır. Çünki Mərkəzi Bankın ehtiyatı var. Bundan başqa, 10 min dollara qədər olan kreditlərin köhnə məzənnəylə - 1,05 manatla ödənməsi də gündəlikdədir. Özüm də təklikdə Mərkəzi Bankla, hökumətlə danışıqlar aparmışam. Bir neçə məsələ var, biri də budur. Ümumi razılıq var. Əsas da istehlak kreditlərinin köhnə məzənnə ilə- 1,05 manatla ödənməsi haqda söhbət gedir. Razılıq var, görək nə zaman qərar verilir”.

**Ekspert Əkrəm Həsənov isə bunun əhalinin deyil, bankların marağı ilə atılan addım olduğunu vurğulayıb:** “Son günlər 10000 dollar məbləğinədək olan kreditlərin 1,05 məzənnə ilə ödəniləcəyi haqda söz-söhbət artıb. Deyilənə görə, məzənnə fərqini banklara Mərkəzi Bank ödəyəcək. Yəqin ki, belə olacaq. Bank da öz növbəsində vətəndaşın borcunu 1,05 məzənnə ilə manata mübadilə edəcək. Əlbəttə, bu əməliyyat nəticəsində vətəndaşın vəziyyəti xeyli yüngülləşmiş olacaq. Əvvəla, ona görə ki, krediti manata keçirilmiş olacaq və deməli, növbəti devalvasiya riskindən sığortalanmış olacaq. Ən əsası isə krediti manata əvvəlki məzənnə ilə çevriləcək və beləliklə də borcu azalmış olacaq. Təbii, bu hələ o demək deyil ki, vətəndaş bundan sonra kreditini ödəməyə başlayacaq və ya nəticədə tam ödəyəcək. Böyük ehtimalla, hətta bu güzəştdən sonra da belə kreditlərin əksəriyyəti tam ödənilməyəcək. Çünki əhalinin gəlirləri düşüb, qiymətlər isə qalxıb. Bu səbəbdən hətta manat kreditlərinin də xeyli hissəsi artıq ödənilmir. Lakin hər bir halda, bu əməliyyat nəticəsində əsas


Vahid Əhmədov

uduşu əldə edən banklar olacaq. Təsadüfi deyil ki, təklifin müəllifi də məhz onlardır. Mən hətta deyərdim ki, bu, təklif yox, bankların Mərkəzi Banka tələbidir. Ona görə ki, bankların çoxu hazırda müflislik həddindədir. Problemli kreditlərinin həcmi dəhşətli səviyyəyə çatıb, əmanətlər kütləvi şəkildə çıxarılır, filiallar bağlanır, işçilər ixtisar edilir və sair. Belə vəziyyətdə Mərkəzi Bankın bankların problemli kreditlərinin müəyyən hissəsini ödəməsi əlbəttə ki, banklar üçün böyük nailiyyətdir. Heç bir zəhmət çəkmədən, səy göstərmədən 10000 dollaradək olan problemli kreditlərinin 33 faizini qaytarmış olurlar. Bir qayda olaraq, bu məbləğdə olan kreditlər üzrə adətən girov olmur, borclu isə normal rəsmi gəlirə malik deyil. Yəni belə kreditlərin böyük əksəriyyəti onsuz da qaytarılmayacaqdı. Buna görə də ən azı yaxın vaxtlarda bankların bu kreditlər üzrə məhkəmə iddiası qaldırmaq zərurəti aradan qalxacaq və onlar diqqətlərini daha iri məbləğli kreditlərə yönəldəcək. Bankların maliyyə və kadr resurslarının azaldığı dövrdə bu, çox böyük nailiyyətdir”.

**Ekspertlərin sözlərinə görə, bu təklifin məhz banklardan qaynaqlanması təsadüfi deyil:** “Banklar xalqın pulu hesabına ümidsiz kreditlərinin bir hissəsini silmək və digər problemli kreditləri üzrə borcluların üstünə həmləyə hazırlaşır. Lakin hər bir halda əgər bankların bu fəndi baş tutsa, on min dollaradək borcu olan vətəndaşların da vəziyyəti bir qədər asanlaşacaq. Dövlət bu vəziyyətdə, əlbəttə, yardım etməlidir. Amma sual yaranır ki, kimə: banklara, yoxsa əhaliyə? Niyə məhz banklara? İllər boyu yüksək faizlər hesabına əhalidən qazandıqları pullar hanı? Ölkədədir, yoxsa xarici offşorlarda? Niyə qazandıqlarını inkişafa və ya ən azı ehtiyata sərf etməyiblər? Əgər banklar yardımın məhz onlara edilməsində israrlıdırsa, buyursunlar, bütün illərin maliyyə göstəricilərini, o cümlədən qazandıqları dividentlərin kimlərin cibinə getdiyini açıqlasınlar. Yardım istəyən şəffaf olmalıdır. Axı yardım xalqın sərvəti hesabına edilir. Yox, əgər banklar bunu etməyəcəksə, yardıma da haqları yoxdur”.

❑ **RÖYA**



# Azərbaycanlı ixtiraçı prezidentə müraciət etdi ®

## “AMEA-da ixtira və yeni ideyalar heç kimi maraqlandırmır”

Mühəndis-ixtiraçı Rəsman Hacıyev Azərbaycan Prezidenti cənab İlham Əliyevə müraciət edib. O, müraciətində yazır:

“Hörmətli cənab Prezident!

Sizin ünvanınıza dəfələrlə etdiyim müraciətlər bir qayda olaraq Azərbaycan Milli Elmlər Akademiyasına göndərilir. Bunun nə məqsədlə edildiyi mənə aydın deyil. Çünki AMEA-da qarşılaşdıqlarım və gördüklərim onu deməyə əsas verir ki, bu qurumda ixtira və yeni ideyalar heç kimi maraqlandırmır.

Müraciətimin Sizə çatdırılmasına kömək göstərmələri məqsədi ilə Azərbaycan Respublikası Milli Məclisin deputatlarına - Sabir Rüstəmxanlıya, Zahid Oruca, Fazil Qəzənfəroğluna və Aydın Mirzəzadəyə yazılı və üzbəüz söhbətlər müraciət etmişəm. Onlardan da gördüyüm münasibətlər məndə təəssüf hissi yaradıb.

Ümidlərim hər yerdən kəsildikdən sonra Türkiyə səfirliyinə məktubla müraciət etdim və xahiş etdim ki, bu işdə mənə köməklik göstərsinlər. Təəssüflə qeyd etmək istərdim ki, müraciətimdən 2 aydan çox vaxt keçməsinə baxmayaraq Türkiyə səfirliyindən də heç bir cavab almamışam.

Ümidvaram ki, mətbuatda dərc olunan bu açıq məktubum Sizə çatdırılacaq.

Mən yaxşı anlayıram ki, mənim dediklərimi və istədiklərimi çoxları başa düşmür. Çünki bu dünyada mövcud olmayan (Veloelektromobil) bir ixtira və ideyadır. Onu da yaxşı bilirəm ki, çoxları belə fikirləşir ki, necə ola bilər belə nəqliyyat vasitələrini Yaponiya, Almaniya və Amerika yarada bilmir, azərbaycanlı mühəndis yaradır. Belə düşünmək özünə inamsızlığın nəticəsidir. Birinci Avropa Oyunlarının qısa müddət ərzində təşkili və yüksək səviyyədə keçirilməsi sübut etdi ki, Azərbaycan xalqı böyük istedada və qabiliyyətə malikdir. Bu işə Sizin və Mehriban xanım Əliyevanın rəhbərlik etməsi çox böyük nailiyyətlərin əldə olunmasına gətirib çıxartdı. Mənim problemim ondadır ki, hara və kimə müraciət edirəmsə deyirlər ki, bu işin icrası bizim gücümüz daxilində deyildir. Bəs prezidentin ünvanına etdiyim müraciətləri və yaxud mətbuatda gedən yazılarımı cənab prezident İlham Əliyevə çatdırmaq da çətindir? Çətin deyil, sadəcə, ortada istək yoxdur. Sizin ünvanınıza təqdim etdiyim bu materiallar dediklərimin əyani sübutudur. İndi məni ən çox düşündürən bir şey var, hara və kimə müraciət edim ki, səsim sizə çata bilsin!

❑ **Böyük hörmətlə: Mühəndis-ixtiraçı Rəsman HACIYEV**

**Əlaqə tel: 050 427-96-34**

**PA daxil olub H 4090/137**

**08.10.2015-ci il**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# Təşkilat sədri həlak olmuş neftçi ailələrinə dəstəyi artırmağa çağırdı

## **Mirvari Qəhrəmanlı:** "Kredit borcları silinməli, azyaşlı uşaqları himayəyə götürülməli, ödənişli təhsil alan uşaqlar təhsil haqqından azad edilməlidir"

**2015-ci il dekabrın 4-də "Günəşli" yatağının 10-cu özülündə və Neft Daşlarında baş verən qəzalardan 2 aya yaxın vaxt keçir. Qəza zamanı "Günəşli" yatağında 11 nəfər dünyasını dəyişib, 19 nəfərin isə axtarışları davam edir. Neft Daşlarında baş verən qəzada isə 3 nəfər itkin düşüb.**



Qəza zamanı həlak olan neftçilərə sığorta ödənişinin bu ayın sonunda ediləcəyi gözlənilir. Sığorta ödənişi 26 min manat və 92 min manat arasında dəyişəcək.

Bundan başqa, ailələrə baş nazir Artur Rəsi-Zadənin sərəncamı ilə Ehtiyat Fondundan 15 min manat birdəfəlik maddi yardım ödənilib. Birdəfəlik yardım itkin düşən və dünyasını dəyişən bütün neftçilərin ailəsinə verilib. Sığorta ödənişi isə hələ ki ölən neftçilərin ailəsinə veriləcək. Neftçilərin ölümlərini təsdiq edən sənədlər hazırdır və təhqiqat işləri də başa çatdıqdan sonra sığorta ödənişləri ediləcək.

İtkin düşən neftçilərin ailəsinə sığorta ödənişinin ödənilməsinə gəlincə isə onların itkin düşməsindən 6 ay keçdikdən sonra ailəsinə sığorta pulu ödənilə bilər.

**Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatının sədri Mirvari Qəhrəmanlı deyir ki, itkin düşən neftçilərin ailəsinə sığorta ödənişi verilənədək Dövlət Neft Şirkəti həmin ailələrə yardım göstərməlidir:** "Sığorta ödənişi ölüm kağızı ilə ödənilə bilər. Qanun ölüm kağızı ilə tənzimlənir. Ancaq nəzərə almaq lazımdır ki, bu ailələr başçısını, gəlir gətirən şəxsini itirib. Neft Şirkəti bunu özü düşünməlidir. Daxili əmrlə bu ailələri himayəyə götürmək, ən azından sığortanı alanadək onlara dəstək olmaq lazımdır. Təbii ki, indiki zamanda bir ailəyə 15 min manat yardım azdır. Əlavə yardımların göstərilməsi mütləqdir. Çünki bu insanlar öz səhvlərindən dünyasını dəyişməyib. Onların həlak olmasının məsuliyyəti Dövlət Neft Şirkətinin strukturlarının üzərinə düşür. Başçısını itirən ailələrin kredit borcları silinməlidir. Banklardan biri bu təşəbbüslə çıxış etdi. Ancaq Neft Şirkəti də bu addımı atmalıdır. Ölən şəxsin borcunu bilirik ki, ailəsi ödəməlidir. Bu səbəbdən də neft şirkəti bunu nəzərə almalıdır. Bu yaxınlarda BP ixtisara saldığı işçilərinin kredit borclarını ödədi. Bu ailələrin həddi buluğa çatmayan uşaqlarına dəstək olmaq lazımdır. Onlar himayəyə götürülməlidir. Ödənişli təhsil alan uşaqlar təhsil haqqından azad edilməlidir. Bu, Neft Daşlarında baş verən qəzada itkin düşən neftçilərə də şamil edilməlidir".

**M.Qəhrəmanlı deyir ki, qəza zamanı xəsarət alan neftçilərin müayinəsi tam olaraq davam etdirilməlidir:** "Xəsarət alanlar psixoloq nəzarətində olmalıdır. Onlar böyük psixoloji sarsıntı keçiriblər. Xəsarət alan neftçilər də nəzarətdə saxlanılmalıdır. İtkin düşən neftçilərin ailəsi də diqqətdə saxlanılmalı, psixoloqların iştirakı ilə onlarla görüşlər təşkil olunmalıdır".

**Dünyasını dəyişən neftçilərin ailəsinə ödəniləcək sığortanın məbləğinə gəlincə isə təşkilat rəhbəri deyir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun açıqladığı 26-92 min manat ədalətli deyil:** "Bu rəqəmlər onu göstərir ki, yəqin ki, neftçilərin ailəsinə ayrı-ayrı məbləğlər ödəniləcək. Lakin bu ədalətli qərar olmaz. İş stajından, ailə üzvlərinin sayından asılı olaraq belə qiymətləndirmə aparmaq olmaz. Hər bir neftçinin ailəsinə eyni məbləğ ödənilməlidir. Ayrı-seçkilik olarsa, təbii ki, bu, narazılığa səbəb olacaq".

❑ **İlkin MURADOV**

# Sabah 20 Yanvar faciəsinin 26-cı ildönümüdür

## Yanvarın 20-də saat 12:00-da paytaxtda bir dəqiqəlik sükut elan ediləcək

**Sabah 20 Yanvar faciəsinin 26-cı ildönümüdür. Bu faciəli günün ildönümü ilə bağlı hər il olduğu kimi bu il də siyasi partiyalar Şəhidlər Xiyabanını ziyarət edəcək, bir sıra anım tədbirləri keçirəcəklər.**

Müsavat Partiyasının başqan müavini Elman Fəttah Şəhidlər Xiyabanını ziyarət edəcəklərini, daha sonra isə mərkəzi qərargahda anım tədbirləri keçirəcəklərini bildirdi: " Müsavat Partiyası bu il də Şəhidlər Xiyabanını ziyarət edəcək. Bu partiya şəklində olacaq. Partiyanın rəhbərliyi də daxil olmaqla, Müsavat Partiyasının üzvləri saat 13:00-da Elmlər Akademiyası yaxınlığında müəyyən olunmuş yerdə toplaşaraq oradan toplu şəkildə hərəkət edəcək. Biz nəinki siyasi partiyalar, bütün xalqla birlikdə bu ziyarətimizi həyata keçirəcəyik. Bundan sonra partiya qərargahında anım tədbiri olacaq".

ADP sədri Sərdar Cəlaloğlu xüsusi planlarının olmadığını, hər zaman olduğu kimi kimi Şəhidləri Xiyabanına gedəcəklərini və şəhidlərin məzarlarını ziyarət edəcəklərini bildirdi.

**Ümid Partiyasının sədri İqbal Ağazadə də şəhidləri ziyarət edəcəklərini dedi:** "Biz partiya olaraq Şəhidlər Xiyabanını ziyarət edəcəyik və anım tədbirimiz də bununla yekunlaşacaq".

**VHP-nin İcra Aparatının rəhbəri Samir Əsədli Şəhidlər Xiyabanını ziyarət etməyin mənəvi borcları olduğunu dedi:** "Biz yanvarın 20-si saat 13:00-da Şəhidlər Xiyabanını kollektiv şəkildə ziyarət edəcəyik".

Bakı Şəhər Baş Polis İdarəsindən (BŞBPİ) verilən məlumata görə, 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar xüsusi tədbirlər planı hazırlanıb.

Plana əsasən, yanvarın 20-si səhər saat 07:00-dan axşam saat 18:00-dək Şəhidlər Xiyabanı istiqamətində Parlament prospekti boyu və Mehdi Hüseyn küçəsində Teleteatrdan başlayaraq yollar bağlanacaq. Bu yollarda nəqliyyatın hərəkəti tam məhdudlaşdırılacaq.

Vətəndaşların Şəhidlər Xiyabanını ziyarəti saat 11:00-dan başlayacaq və 19:00-dək davam edəcək.

Yanvarın 20-də saat 12:00-da paytaxtda bir dəqiqəlik sükut elan ediləcək.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən (BŞDYPİ) bildiriblər ki, Şəhidlər Xiyabanına gələn ziyarətçilərin təhlükəsizliyini təmin etmək məqsədilə yanvarın 20-si saat 07:00-dan mərasim başa çatanadək Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin kəsişməsindən, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişməsindən, Mehdi Hüseyn küçəsində Teleteatr binasının qarşısından, Milli Məclisin inzibati binasının arxa hissəsində İzzət Nəbiyev və Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən Parlament prospekti - Şəhidlər xiyabanı istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.

❑ **Günel MANAFLI**



YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# "Üsyankar səfir" müxalifət liderlərinə çağırış etdi

## Əli Kərimlinin "əsl müxalifət mənəm" iddiası bitmir; partiyalar sabiq səfirə cavab verdilər

**Azərbaycanın Avropa Şurasında daimi nümayəndəliyinin keçmiş rəhbəri, hazırda Avropada siyasi sığınacaq alaraq yaşayan, "üsyankar səfir" kimi tanınan Arif Məmmədov özünün facebook səhifəsində müxalifət partiyalarının liderlərinə videomüraciət edib. Arif Məmmədov müraciətində bildirib ki, ölkədə iqtisadi böhrandan, işsizlikdən xalq əziyyət çəkir. Xalqın və dövlətin naminə birləşmək lazımdır:**

"Mən müxalifət liderlərinə müraciət edirəm. Hamınıza böyük hörmətim var. Hamınız xalq hərəkatında böyük xidmətlər göstərmisiniz, hamınız xalqı istəyən insanlarsınız. Bu gün müxalifət keçmiş inciklikləri qırağa qoymalıdır, xalqın qarşısında öz birliyinizi göstərməlisiniz. Bu gün AXCP, Milli Şura, Müsavat ayrı olmamalıdır. Bütün müxalifət birləşməlidir. Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı birlik göstərməlidir. Birlik olmayanda xalq da inamını itirir. Bu gün məsələ tək hakimiyyət məsələsi deyil. Söhbət Azərbaycanın mövcudluğundan, dövlət kimi gələcəyindən gedir. Azərbaycan xalqı dözümlü və bağışlayan xalqdır. Xalq hər şeyi bağışlaya bilər. Xalq yalnız bir şeyi bağışlamaz - qan töküləs. Qan töküləsə məsuliyyət yalnız hakimiyyətin üzərinə düşməyəcək, hər kəsin üzərinə, cəmiyyətin də üzərinə düşəcək".


Arif Məmmədov

Arif Məmmədovun müxalifətə birləşmə çağırışı ilə eyni vaxtda həmin çağırışın ünvanlandığı şəxslərdən biri-AXCP sədri Əli Kərimli bu çağırışı saya saymayan və bölünməni daha da dərinləşdirən müsahibə verib. Əli Kərimli Meydan TV-yə müsahibəsində AXCP və Milli Şuradan başqa müxalifətdə heç kəsin olmadığını bir daha bəyan edib. O deyib ki, müxalifətin satın alınmış, hökumətin ram etdiyi, yaxud faktiki fəaliyyət göstərməyənləri hesaba salıb "müxalifət dağınıqdır" tezisini gündəmə gətirməyə ehtiyac yoxdur. Azərbaycanda real müxalifət birlikdədir, bu da AXCP-dir, Milli Şuradır.

Jurnalistin verdiyi "Siz Müsavat Partiyasını satın alınmış hesab edirsiniz" sualına cavabında isə Ə.Kərimli əvvəl söylədiyi ittihamın Müsavata aid olduğunu inkar etməyib, əksinə, "kimlərin ciddi müxalifətçilik edə bilməsi ortadır" deməklə ittihamının Müsavata aid olduğunu təsdiqləmiş olub. AXCP sədri 2013-cü ilin prezident seçkilərini də rəhbəri olduğu təşkilatın adına yazıb.

**Ə.Kərimlinin bu və digər ittihamlarına Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı müəllif yazısı ilə cavab verib. G.Aslanlı qeyd edib ki, Müsavat Partiyası daim siyasi mübarizəni müxalifət daxilindən çıxartmağa çalışıb. Cəmiyyətin maraqlarını nəzərə alaraq bəzi tərəfdaşların təkəbbürlü, qeyri-adekvat davranışlarına rəğmən, hakimiyyətin basqısına qarşı ümumi müqavimətin təşkili üçün konkret addımlar atıb:** "Müsavat başqanı Arif Hacılı rejimə qarşı birgə mübarizəni təşkil etmək üçün həm Cəmil Həsənli, həm də Əli Kərimli ilə görüşlər keçirib, konkret əməkdaşlıq təklifləri ilə çıxış edib. Bundan sonra da belə olacaq. Biz cəmiyyətin konsolidasiyasına çalışırıq. Ə.Kərimlinin Meydan TV-yə müsahibəsində dedikləri 2013-cü ildə siyasi proseslərdə fəallıq edən müsavatçılara qarşı həqarətdir. 2013-cü il prezident seçkilərinin əsas resursu Müsavat Partiyası idi...

Biz isə ədalət hissimizi itirməmişik. AXCP-nin həmin seçkilərdə mühüm rolunu heç vaxt inkar etməmişik. Azərbaycan tarixində Müsavatın, onun dəstəklədiyi namizədin iştirak etdiyi elə seçkilər olmayıb ki, seçicilərin əksəriyyətinin səsini almasın. Bu, cəmiyyətdən aldığımız dəstəyin göstəricisidir. Beynəlxalq birliyin münasibəti də adekvatdır. Postsosialist ölkələrinin siyasi liderlərinin konqreslərində Müsavat iştirak edir. Avropa İttifaqının " Şərq Tərəfdaşlığı" proqramının müzakirəsinə Müsavat dəvət olunur. Cənubi Qafqazda ölkələrarası münasibətləri gələcəyini müəyyənləşdirəcək "Podzdam prosesi"ndə Müsavat iştirak edir. 20 Avropa ölkəsinin səfirləri Müsavat başqanı Arif Hacılı ilə görüşür...

"Müsavat Milli Şuradan niyə çıxdı"-deyən dostlarımız bunun səbəbini hamıdan yaxşı bilir. Sadəcə, bizim müsavatçı əxlaqımıza arxayın olduqlarından bu sualı şantaj kimi təkrar-təkrar səsləndirirlər...

Müsavat Azərbaycanın taleyi üçün məsuliyyət daşıyan partiyadır. Müsavat Partiyası da, onun başqanı da həmişə mübarizənin önündə olub, son 25 ildə Bakıda, Moskvada, Avropada, Amerikada oturub böyük bəyanatlar verənləri həlledici mübarizə anında nəinki önümüzdə, heç yanımızda da görməmişik".

Bu da Arif Məmmədovun birlik çağırışının cavabı. Yəqin ki, "üsyankar səfir" özü üçün nəticə çıxardı.

❑ Etibar SEYİDAĞA

# "Prezidentə xəyanət edənlərin anasını ağlar qoyacağıq"

## Hafiz Hacıyev: "Milyardlar yemisiniz, oturun yerinizdə..."

### "Bölgələrdə ailələr acdır. Hanı açılan iş yerləri?.."

**Son günlərdə rayonlarda baş verən aksiyalarla bağlı Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev Göygölə gedib. Bu barədə "Yeni Müsavat"a partiya sədrinin özü məlumat verib. O, adlarını çəkməsə də, səfərini bəzi deputatlarla birlikdə təşkil etdiyini bildirib.**

H.Hacıyev görüş barədə qəzetimizə açıqlamasında ölkə başçısına dəstək naminə belə addım atdığını söylədi: "Bütün dünya bilir ki, Hafiz Hacıyevin məqsədi nədir. Bu gün qardaşım ölkədə prezidentdir. Onu qoruyub-saxlamaq üçün həyatımı qurban vermişəm. Qardaşıma düzgün informasiyalar çatdırmırlar. Cənab prezident deyir ki, müəyyən iqtisadi ixtisarlar gedəcək, bəzi nazirliklər ləğv olunacaq, yaxud başqa bir quruma birləşdiriləcək. Bundan hakimiyyətdaxili bəzi insanlar narahat olurlar. Çünki vəzifələrini itirmək təhlükəsi ilə üzləşiblər. Həmin insanlar respublika səviyyəsində təxribat işləri aparmağa başlayıblar. Ona görə də rayonlara səfər edir, yaranmış təhlükəli vəziyyət barədə dövlətçiliyimizə doğru məlumat verirəm. Səfərim zamanı mənimlə bəzi deputatlar da olublar. Təəssüf edirəm ki, bu gün hakimiyyətdə olan vicdanını itirmiş bəzi şəxslər bölgələrdəki aksiyaları müxalifətin adına bağlayırlar. Burada müxalifətin heç bir rolu yoxdur".

**Partiya sədri səfərlərinin təhlükəli olmasına da aydınlıq gətirdi:** "Mən həyatımı qardaşım İlham Əliyevə qurban vermiş şəxsəm. Bu günədək kirayədə yaşamışam, çox əziyyətlər çəkmişəm. Bundan böyük təzyiq, təhlükə ola bilərmi? Ölkəmizdə cərəyan edən hadisələrin səngiməməsinin başında iqtidar daxilindəki bəzi şəxslər dayanır. Bunlar Rusiya və Qərb tərəfindən öyrədilmiş insanlardır. Müəyyən dairələr var, istəyirlər ki, qardaşım İlham Əliyevin əlini Qərbdən üzsünlər. Ondan sonra isə çirkin əməllərini rahat şəkildə davam etdirsinlər. Buna imkan verməyəcəm. Rusiyaya xidmət edən qruplar çalışırlar ki, məni öldürsünlər. Bütün bunları təşkil edənlər ölkəyə xəyanət edənlərdir. Təsəvvür edin ki, aksiyalar Rusiya və Ermənistan sərhədlərinə yaxın ərazilərdə baş verir. Artıq 20 Yanvar faciəsi çatır, bundan çox narahatam. Çünki bu gündən istifadə edib ölkəni qana bürüyərlər. Geniş oxucu kütləniz olan qəzet və saytınız vasitəsilə həmin insanlara səslənirəm ki, əl çəkin İlham Əliyevdən. Bundan yaxşı başçı tapa bilməyəcəksiniz. Hansısa bir klan tapacaqsınızsa, qarşınızda Hafiz Hacıyevi görəcəksiniz. Ölkə prezidentinin arxasındayam. İmkan verməyək ki, "Beşinci kolon"un üzvləri ölkəmizdə İlham Əliyevi təkləsinlər. Lazım gələrsə, Prezident Aparatının qarşısında İlham Əliyevin müdafiəsi istiqamətində mitinqlərə başlayacağıq. Üzvlərimiz həmin xəyanətkarların şəkilləri ilə aksiyaya çıxacaqlar. Ölkə başçısını ətrafında olan satqın, vicdansız insanlardan qorumalıyıq".


Hafiz Hacıyev

**H.Hacıyev səfər təəssüratlarından da danışdı:** "Xalqımızda böyük ruh düşkünlüyü var. 150 manat maaş alan vətəndaş bu gün özünə ət, qənd ala bilmirsə, necə yaşasın? Hökumətdə olan bir şəxs də xalqın arasına çıxmır. Görməmişəm ki, baş nazir və onun müavini xalqla görüşsün. Xalqın yuxarıdan gələn hər bir şəxsi görməyə böyük ehtiyacı var. Deputatlara demişəm ki, nə oturmusunuz kabinetlərinizdə, çıxın xalqın arasına. Qiymətləri qaldıran hər bir qurumun rəhbəri açıqlama verməlidir. "Azərsun" bu gün qiymətləri qaldırır, amma açıqlama verilmir. Heç bir rəhbər kabinetindən çölə çıxmır. Çünki yerləri rahatdır. Onların yalnız bir məqsədləri var - xalqın çətin durumundan istifadə edib, milyardlar qazansınlar. Bəzi nazirlər istəyir ki, ölkədə təxribat olsun, vəzifələrini qorusunlar. Bəyan edirəm ki, prezidentə xəyanət edənlərin anasını ağlar qoyacağıq. Bəzi deputatlar müxalifətdə olan şəxsləri təhqir edirlər. Hadisələri qızışdırmaq lazım deyil. Deputatsınız, milyardlar yemisiniz, oturun yerinizdə. Barışığa getməliyik. İcra başçısının biri deyir ki, arağa görə üsyan edirlər. Baxırsan ki, həmin rayon dindar yerdir. Bölgələrdə çörək növbəsinə dururlar, çünki ailələri acdır. Hanı açılan iş yerləri? Günahın hamısı qocalar evinə bənzəyən Nazirlər Kabinetinin üzərindədir".

❑ Cavanşir ABBASLI



# Xoşqədəm Hidayətqızı: "Mən özüm də iki dəfə Ərdoğanla görüşmüşəm"

**Türkiyənin tanınmış müğənnisi Doğuşun prezident Rəcəb Tayyib Ərdoğanla görüşü yerli mətbuatda da maraqla izlənildi. Türkiyə mətbuatının verdiyi xəbərə görə, prezidentin dəvəti ilə Atatürk Hava Limanına yollanan müğənni R.T.Ərdoğana yeni albomu "Aklında bulunsun"u hədiyyə edib. Müğənni albomunda qaradənizli Ərdoğana da mahnı həsr etdiyini bildirib.**

Doğuşun xanımı, azərbaycanlı teleaparıcı Xoşqədəm Hidayətqızı isə prezidentlə olan görüş barəsində mətbuatdan xəbər tutub. Tanınmış teleaparıcı bunu "Yeni Müsavat"a açıqlamasında bildirib:

"Mən də sizin kimi bu barədə mətbuatdan oxudum. Ona görə də detallardan məlumatım yoxdur".

"Siz özünüz də nə vaxtsa Ərdoğanla görüşmüsünüzmü" sualımıza Xoşqədəm Hidayətqızı bu cür cavab verdi:

"Bəli, şəxsən iki dəfə görüşüb ondan müsahibə götürmüşəm. O, çox diqqətcil, qarşısındakı insana hədsiz dərəcədə hörmət edən insandır. Xatırlayıram ki, illər öncə müsahibə götürmək üçün müraciət etdim. Bildiyimə görə, həmin gün onun Almaniyaya səfəri var idi, hava limanına tələsirdi. Buna baxmayaraq, məni köşkündə qəbul etdi. Heç zaman unutmayacam, ona qarşı ən böyük sevgim də verdiyi sözü tutmasıdır. Belə ki, bir toplantıda mənə müsahibə üçün söz vermişdi və verdiyi bu sözü tutdu. Səfər öncəsi, gərgin anlarında, hava limanına tələsdiyi bir ərəfədə mənə yarım saat vaxt ayırdı.

Evimdə bütün liderlərlə olan görüşlərimin fotoları var. Ən yüksək yerdə olan fotolar arasında Ərdoğanla olan foto da var".

❑ Xalidə GƏRAY

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# Erməni işğalına qarşı iki mühüm sənəd masa üzərində

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) gələn həftə keçiriləcək qış sessiyasında Azərbaycanın maraqlarına uyğun hazırlanmış iki mühüm sənədin müzakirəyə çıxarılması düşmən ölkədə ciddi narahatlıq doğurub. Ermənistan hakimiyyətinin və diaspor təşkilatlarının xətti ilə AŞ PA deputatlarının ələ alınmasından tutmuş, onlara təsir göstərilməsinə qədər ən müxtəlif səpkili planların işə salınması, Azərbaycana qarşı ermənipərəst çevrələrin qaralama kampaniyasını davam etdirməsi də bunu göstəricisidir.**

Qeyd edək ki, AŞ PA "Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ və digər ərazilərindəki zorakılıqlar" və "Sərsəng su anbarı"nın ermənilər tərəfindən qanunsuz istismarı ilə bağlı sənədləri müzakirəyə çıxararaq qəbul etməyi planlaşdırır. Bundan əvvəl Sosial Məsələlər Komitəsinin Paris iclasında da ermənilərə zərbə sayılan sənəd qəbul olunmuşdu. Belə ki, "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" adlı qətnamə layihəsinin səsvermə nəticəsində qəbulu erməniləri çətin vəziyyətə salmışdı. Beynəlxalq təşkilatın qətnamə layihəsində Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən dərhal geri çəkilməsi, Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir, yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırması tələb edilir. Üstəlik, Parlament Assambleyası Ermənistan Parlament nümayəndə heyətinin və Ermənistan hakimiyyətinin bu məruzənin hazırlanmasında əməkdaşlıq etməməsini qəti pisləyib, bu rəftarı AŞ-nin tamhüquqlu üzvü olan bir ölkənin öhdəlik və vəzifələrinə zidd hesab edir və deputatların mandatı dövründə yarana biləcək buna bənzər hallarda görülə biləcək tədbirləri nəzərdən keçirəcəyini bildirib. Artıq hər iki sənəd ötən il qurumun müvafiq komitələrində *(Siyasi və Sosial komitələrində)* təsdiqlənib. Onların AŞ PA-da qətnamə şəklini alması Azərbaycanın haqlı mövqeyinin dünyada növbəti mötəbər təşkilat tərəfindən təsdiqi demək olacaq. Bundan əvvəl Avropa Parlamenti də Azərbaycan ərazilərinin dərhal işğaldan azad olunması tələbi ilə qətnamə qəbul etmişdi.

ABŞ-ın dövlət katibi Con Kerrinin "dondurulmuş münaqişələr həll edilməlidir" bəyanatından və Almaniyanın ATƏT-də sədrliyə başlamasından sonraya təsadüf edən bu müzakirələrdən nələr gözləyə bilərik?

**Politoloq Arzu Nağıyev qeyd etdi ki, AŞ PA-nın bu sessiyasında əsas məsələ Robert Volterin hazırladığı məruzə ilə bağlıdır:** "Keçən ilin noyabrında qəbul edilmiş qərara əsasən, eyni zamanda Sərsəng su anbarı ilə bağlı Azərbaycan tərəfinin hazırladığı layihəyə də baxılmalıdır. Ermənilər işğal məsələsi ilə bağlı bu hər iki layihənin əleyhinə oldular. Lakin fakt faktlığında qalır. Təbii ki, burada ATƏT-in Minsk Qrupunun da fəasliyyətsizliyi özünü göstərdi. Almaniya ATƏT-in sədrliyinə başlayıb və bu artıq Fransadan sonra Avropa məkanında öz sözünü deyə bilən bir dövlətdir və düşünürəm ki, Azərbaycanla insan hüquqları ilə bağlı yaranmış məqam həllini taparsa, bizim üçün böyük bir şans yaranar".



**Arzu Nağıyev:** "Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində nüfuz savaşı başlayıb"



**Elxan Şahinoğlu:** "AŞ PA müstəvisində Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlər xeyrimizədir"

**A.Nağıyev qeyd etdi ki, Sərsəng su anbarı ilə bağlı məsələ də bizim üçün önəmlidir:** "Çünki su anbarı işğal olunmuş əraziyə düşür və bu inkar olunmaz faktdır. Bir daha qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində nüfuz savaşı başlayıb. Bir tərəfdən bu, bizim üçün müsbət bir hal kimi qiymətləndirilməlidir. Təəssüf hissi ilə qeyd edilməlidir ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri ötən illər ərzində ancaq deklorativ bəyanatlar verməklə kifayətləndilər və münaqişənin həllində mühüm addımlar atılmadı, hətta əksinə, vəziyyət daha da gərginləşdi. Buna əlbəttə ki, regionda özünü göstərən amillər də təsir göstərdi. Bundan da ermənilər öz xeyrinə istifadə etdilər və status-kvonun saxlanmasına, öz siyasi ambisiyalarına uyğun olaraq beynəlxalq hüquq normalarına hörmətsizliklə yanaşaraq addımlar atdılar".

**Politoloq hesab edir ki, bu gün ABŞ-ın dövlət katibi Con Kerrinin bəyanatından, Almaniyanın ATƏT-dəki sədrliyindəni maksimum yararlanmaq lazımdır:** "ABŞ və Rusiyanın regionda və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı nüfuz davasını nəzərə alıb və bundan istifadə edib ATƏT-in atacağı addımlara təsir göstərmək lazımdır. O halda bu yolla prosesləri müsbət məcraya yönəltmək olar. Təbii ki, bunlarla yanaşı, Türkiyə-Rusiya münasibətlərinin gərginliyi və hər iki dövlətin münaqişənin həllində öz baxışları olduğunu da nəzərdən qaçırmaq olmaz. Bütün bu deyilənləri nəzərə alsaq, zənnimcə, müəyyən irəliləyişə nail olmaq olar, lakin əsas məsələ ərazi bütövlüyü kontekstində güc nümayiş etdirməklə təcavüzkarı sülh masasına əyləşdirməkdən ibarət olmalıdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a dedi ki, AŞ PA-da müzakirə olunacaq hər iki sənəd Azərbaycan üçün çox mühüm əhəmiyyət kəsb edir:** "Qətnamə layihələrinin ikisi də Azərbaycanın torpaq bütövlüyü ilə bağlıdır. Bu sənədlər qəbul olunsa, beynəlxalq aləmin Azərbaycanın ərazi bütövlüyünə dəstəyi bir daha ifadə olunacaq. Məsələn, Sərsəng su anbarından istifadə etmək üçün ərazilər işğaldan azad olunmalıdır və bu da sənəddə vurğulanıb. Üstəgəl, keçən il Avropa İnsan Haqları Məhkəməsi də Laçından olan Çıraqovlarla bağlı mühüm qərar qəbul edib. Bu qərarla beynəlxalq aləm azərbaycanlıların işğal altındakı torpaqlara maneəsiz qayıtması hüququnu bir daha tanıyıb".

**Lakin E.Şahinoğlu əlavə etdi ki, bütün bunlara baxmayaraq, bu kimi sənədlərin Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməməsi təəssüf doğurur:** "Əgər Ermənistan BMT-nin 4 qətnaməsini yerinə yetirmirsə, aydındır ki, AŞ PA-nın qətnamələrini də qulaqardına vuracaq. Hər halda, beynəlxalq aləmdə, o cümlədən AŞ PA müstəvisində Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlər xeyrimizədir. Gələcəkdə torpaqlarımızı güc yolu ilə azad etməyə başlasaq, bu sənədlər bizim heç bir beynəlxalq hüququ pozmadığımızı ortaya qoyacaq".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev gözlənilən müzakirələrlə bağlı "Yeni Müsavat"a bunları bildirdi:** "Azərbaycan Respublikası Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq həlli istiqamətində digər beynəlxalq təşkilatların, o cümlədən də AŞ PA-nın töhfəsini təqdirəlayiq hesab edir. Azərbaycan münaqişə ilə əlaqədar olan məsələləri üzv olduğu bütün beynəlxalq təşkilatlarda və digər beynəlxalq platformalarda ardıcıl surətdə qaldırır və bu fəaliyyət 2016-cı il ərzində davam edəcək". **Erməni tərəfinin qətnamələrin qəbuluna maneçilik cəhdlərinə gəldikdə, XİN sözçüsü prosesləri qabaqlamağa ehtiyac duymadığını vurğuladı:** "AŞ PA-da üzv dövlətlərin deputatları təmsil olunur və onların fəaliyyəti haqqında şərh verməyimiz düzgün olmazdı".

# Ermənistanı müstəqil ölkə kimi tanımayan nüvə dövləti

## Pakistan-Azərbaycan hərbi əməkdaşlığı yüksək dəyərləndirilir



**Ötən həftə Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Zakaullahın Bakıya səfəri, onun ölkə prezidenti, müdafiə naziri və digər rəsmi şəxslərlə görüşlər keçirməsi Pakistan-Azərbaycan hərbi əlaqələrini yenidən gündəmə gətirib.**

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycanla Pakistan arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və hər iki tərəf üçün qarşılıqlı faydalı olduğunu vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan münaqişəsində Pakistanın Azərbaycanı dəstəklədiyi və xalqımızın haqq işinə kömək etməyə hazır olduğu xüsusi qeyd edilib. Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatda qeyd olunur ki, tərəflər Azərbaycanla Pakistan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində münasibətlərin genişləndirilməsi imkanları və perspektiv istiqamətlərini müzakirə edib, döyüş hazırlığı, birgə təlimlərin keçirilməsi, terrorizmə qarşı mübarizədə müştərək əməkdaşlığın, eləcə də Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin artırılmasının vacibliyi xüsusi vurğulayıblar.

Ölkəmizə səfərdən məmnunluğunu bildirən qonaq Azərbaycan-Pakistan münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Xüsusilə vurğulanmalıdır ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir və üstəlik, indiyədək işğalçı Ermənistanın müstəqilliyini rəsmən tanımayıb. Eyni zamanda müsəlman dünyasında nüvə silahına malik olan yeganə dövlət kimi Pakistanla əlaqələr Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Bu mənada ərazilərimizin erməni işğalında olması şəraitində Pakistan kimi sadiq müttəfiqlərimizin olmasına olduqca böyük ehtiyac var. Adətən Azərbaycan qardaş Türkiyənin ölkəmizə yardımını və hərtərəfli dəstəyini qeyd edir. Lakin Türkiyədən sonra Pakistan kimi güclü müttəfiqimizin olması Azərbaycan xalqının və dövlətinin maraqları baxımından çox mühüm hadisədir. Odur ki, pakistanlı generalın səfərində hansı razılaşmaların əldə olunması xüsusilə maraq doğurur.

**Hərbi ekspert Azad İsazadə "Yeni Müsavat"a dedi ki, hər baxımdan Pakistan-Azərbaycan münasibətlərinin inkişafı faydalıdır:** "Aydındır ki, Pakistan ordusu Qarabağda döyüşən deyil. Amma unutmayaq ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir və Qarabağ məsələsində Azərbaycana Türkiyə ilə bərabər dəstək göstərir. Pakistan kimi ölkə ilə hərbi əməkdaşlıq etmək yalnız faydamızadır. Üstəlik, Pakistan yeganə İslam ölkəsidir ki, nüvə silahına malikdir, onun varlığının özü Azərbaycana böyük dəstəkdir. Təbii ki, söhbət kiməsə nüvə zərbəsi endirilməsindən getmir. Amma bir məsələni xatırlamalıyıq ki, Türkiyə-Rusiya münaqişəsi başlayanda və ruslar Türkiyəni nüvə silahı ilə təhdid edəndə Pakistanın Baş Qərargah rəisi o dəqiqə reaksiya verdi ki, Pakistan nüvə silahı olan ölkə kimi Türkiyənin yanındadır. Yəni bu da təzyiqin bir növüdür. Unutmayaq ki, bu illər ərzində bir dəfə də olsun Pakistan və Azərbaycan arasında inciklik olmayıb".

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirdi ki, Pakistan daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək indi də davam edir:** "Pakistan dövlətinin rəsmiləri bütün beynəlxalq tədbirlərdə bu mövqedən çıxış edib. Həmçinin Pakistan bu günə də Ermənistanın ərazi bütövlüyünü tanımır. O ki qaldı hərbi əlaqələrə, bu müstəvidə əlaqələrimiz ikitərəfli əməkdaşlıq planına əsasən həyata keçirilir".

**MN sözçüsü Qarabağ savaşı başlayacağı halda Pakistanın prosesdə birbaşa iştirakının mümkün olub-olmayacağı barədə suala qısaca belə cavab verdi:** "Pakistanın mövqeyi ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu, kifayət qədər ciddi mövqedir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

# 7 aydır itkin düşən polisin meyiti tapıldı



**İsmayıllı rayonunda itkin düşən keçmiş polis əməkdaşının meyiti tapılıb. AzVision.az-ın məlumatına görə, 63 yaşlı Nəsirov Bəxtiyar Mirzəbəy oğlunun cəsədi bir neçə gün öncə Göyçay rayonunda, su kanalında aşkar edilib. Ailəsi tapılmadığı üçün o, Göyçay bələdiyyəsi tərəfindən dəfn edilib. Keçmiş polis əməkdaşının yaxınları hadisədən bu gün sonra xəbər tutublar.**

Qeyd edək ki, İsmayıllı şəhərinin Mübariz Orucov küçəsindəki 5 saylı ünvanda yaşayan, 1952-ci il təvəllüdlü Nəsirov Bəxtiyar Mirzəbəy oğlu ötən il mayın 1-də yaşadığı evdən çıxaraq naməlum istiqamətə gedib və bir daha geri qayıtmayıb.

Onun ailə üzvləri Bəxtiyar Nəsirovun itkin düşməsi barədə İsmayıllı Rayon Polis Şöbəsinə məlumat veriblər. Polis əməkdaşları tərəfindən 7 aydır ki, beş övlad atası olan Bəxtiyar Nəsirovun tapılması üçün həyata keçirilən axtarış tədbirləri nəticə verməmişdi.

B.Nəsirov təqaüdə çıxan polis serjantı olub.

# Bakıda xəstə özünü xəstəxananın beşinci mərtəbəsindən atdı

**Bakıda intihara cəhd hadisəsi baş verib. "Report" xəbər verir ki, hadisə Nəsimi rayonu ərazisində yerləşən 1 saylı şəhər Kliniki Tibbi Mərkəzdə ("keçmiş Semaşko") qeydə alınıb. Xəstəxanada müalicə olunan Zeynal Zeynalov özünü beşinci mərtəbədən atıb. Həkimlər onun vəziyyətinin ağır olduğunu bildiriblər.**

Hadisə ilə bağlı araşdırmalar aparılır.


# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Qubada qadını boğaraq öldürən şəxs onun maşını ilə qaçıb

**Qubada istirahət mərkəzində törədilən qətlin bəzi təfərrüatları məlum olub. APA-nın əldə etdiyi məlumata görə, Bakı şəhər sakini, 1978-ci il təvəllüdlü Könül Zülfü qızı Zalova tanışı, 1982-ci il təvəllüdlü Elməddin Əziz oğlu Əhmədovla birgə istirahət etmək üçün yanvarın 13-də Quba rayonu Qəçrəş yaşayış massivində fəaliyyət göstərən "Retro" ailəvi istirahət mərkəzinə gediblər. Onlar gecəni bir yerdə keçiriblər.**

Yanvarın 14-də E. Əhmədovla K. Zalova arasında mübahisə düşüb. Aralarında yaranmış mübahisə zəminində E. Əhmədov K. Zalovanı boğaraq öldürüb. Daha sonra isə K. Zalovanın "İnfiniti FX 35" markalı, 10 OD 999 dövlət nömrə nişanlı avtomobilini və mobil telefonunu götürərək hadisə yerindən qaçıb. Həyata keçirilən tədbirlər nəticəsində E. Əhmədov tutularaq istintaqa təhvil verilib. Faktla bağlı Quba rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq tədbirləri davam etdirilir.

# Dağlıq rayonlarda qar yağacaq

**Bakı və Abşeron yarımadasında yanvarın 19-da hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, axşam çiskinli olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 5-7, gündüz 10-14, Bakıda gecə 5-7, gündüz 11-13 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 754 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80 faiz, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən səhər və axşam şimal və qərb rayonlarında yağıntılı olacağı, dağlıq rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir.

# Bakıda oğurluqda şübhəli bilinən şəxslər tutulub

**Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, Xətai rayon 34-cü Polis Bölməsinin əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Bakı şəhər sakinləri - 1994-cü il təvəllüdlü Tamerlan Məmmədov, 1996-cı il təvəllüdlü Zöhrab Məmmədov və Beyləqan rayon sakini 1993-cü il təvəllüdlü Qarakişi Əliyev saxlanılıb.**

Müəyyən edilib ki, onlar yanvarın 10-na keçən gecə, Ş.Səmədov küçəsində yerləşən 33 nömrəli poçtdan, pəncərənin dəmir barmaqlığı sındırılmaqla içərisində 110 manat, 200 ABŞ dolları və poçt markaları olan seyf, yanvarın 15-nə keçən gecə, A.Ələsgər küçəsində Müşfiq Hüseynova məxsus mağazadan, qapını sındırmaqla 800 manat və 10.500 manat dəyərində tütün məmulatları və X.Məmmədov küçəsində yerləşən 3 saylı poçtun 123 saylı filialından, pəncərənin dəmir barmaqlığını sındırmaqla müxtəlif regionlardan gəlmiş vətəndaşlara məxsus 100 ədəd bağlamanı oğurlayıblar.

Faktla bağlı araşdırma aparılır.


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**







# "Nar" beynəlxalq innovasiya müsabiqəsinin tərəfdaşıdır

**"Microsoft Imagine Cup" müsabiqəsinə qatılan komandalarla hazırlıq görüşü keçirildi.**

**Təhsil Nazirliyi, "Microsoft Azerbaijan", "Nar" və Yüksək Texnologiyalar Parkı tərəfindən dəstəklənən "Microsoft Imagine Cup" müsabiqəsi dünya tələbələri arasında hər il keçirilən ən genişmiqyaslı innovasiya müsabiqələrindən biri sayılır. Bu il müsabiqənin milli seçim turuna 11 universiteti təmsil edən 20-dən çox komanda qatılıb.**

nar
Gəlin birlikdə böyüyək

**Müsabiqədən öncə komandaların iştirakı ilə keçirilmiş hazırlıq görüşündə müsabiqənin əsas şərtləri bir daha qeyd edildi, tələbələrə faydalı məsləhətlər verildi, suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırıldı.**

**Qeyd edək "Microsoft İmagine Cup" müsabiqəsində tələbələrdən ibarət komandalar üç kateqoriya üzrə - "İnnovasiya", "Dünya vətəndaşlığı" və "Oyunlar" nominasiyaları üzrə yarışacaqlar. Müsabiqədə iştirak etmək üçün "Microsoft" platforması üzərində innovativ proqram layihəsi, müasir dövrün problemlərini həll edən tətbiqin prototipi və ya orijinal oyun hazırlamaq lazım idi.**

**Hər zaman təhsil və innovasiyaların, elm və mədəniyyətin inkişafına xüsusi önəm vermiş "Nar" özünün korporativ sosial məsuliyyət strategiyası çərçivəsində "Microsoft Imagine Cup" innovasiya müsabiqəsinin milli seçim turuna dəstək verməkdədir.**

# Azərbaycanda 6 nəfər dəm qazından boğulub

**Azərbaycanda dəm qazından ölüm halları baş verib. APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, yanvarın 16-da Yasamal rayonunda yaşayan Fəridə Qurbanova, oğlu Həmid və Günay Məmmədova mənzillərində dəm qazından zəhərləniblər. F.Qurbanova evdə ölüb, Həmid və G.Məmmədova xəstəxanaya yerləşdiriliblər.**

Yanvarın 17-də Binəqədi rayonu ərazisində yaşayan Zərifə Salmanova, Yasamal rayonu ərazisində yaşayan Ramiz Zeynalov, Sumqayıt şəhərində yaşayan Nicat Hüseynov mənzillərində dəm qazından zəhərlənərək ölüblər.

Yanvarın 12-də Abşeron rayonu ərazisindən qidadan zəhərlənmə diaqnozu ilə xəstəxanaya gətirilmiş Gülər Şirinova yanvarın 17-də orada ölüb. Araşdırmalarla onun qidadan deyil, dəm qazından zəhərlənməsi müəyyən edilib.

Hər bir faktla bağlı araşdırma aparılır.

# Bakıda özünü dənizə atan qadın xilas edilib

**Bakıda intihara cəhd edən qadın xilas edilib.APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, yanvarın 16-da Səbayel rayonundakı Milli Parkda 20-25 yaşlı qadın özünü dənizə atıb. O, sudan çıxarılaraq xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.**

# İstirahət günləri baş verən yol qəzalarında 7 nəfər ölüb

**Azərbaycanda istirahət günləri baş vermiş yol-nəqliyyat hadisələrinin sayı açıqlanıb. APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, yanvarın 16-da ölkənin avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 4 nəfər ölüb, 15 nəfər yaralanıb. Yanvarın 17-də isə 5 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 3 nəfər ölüb, 3 nəfər yaralanıb. Hər bir faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 13 (6334) 19 yanvar 2016

# Dollarla aparılan əməliyyatlar yasaqlana bilərmi...

## Natiq Cəfərli: "Bunu insanlara heç kim qadağan edə bilməz"

## Rəşad Həsənov: "Əgər hansısa tənzimləmə aparılacaqsa, bu, sadəcə, hökumətin dəstəyi ilə ola bilər"

**Devalvasiyadan daha çox əziyyət çəkənlər dollarla əməliyyat aparanlar, kredit alanlar oldu. Manatın məzənnəsinin aşağı düşməsi dollarla aparılan əməliyyatların qadağan edilməsi mövzusunu gündəmə gətirib. Bir çox insanlar Azərbaycanın milli valyutası manat olduğuna görə bütün əməliyyatların, alış-verişlərin dollarla yox, manatla aparılmasını tələb edirlər. Hazırda dünyada mövcud olan 200-ə yaxın ölkənin bir-biriləri ilə iqtisadi əlaqələrinin milli valyuta ilə yox, dünya valyutası rolunu oynayan dollardan istifadə etməklə həyata keçirirlər. Ancaq bundan imtina etməyə çalışanlar, dollarla aparılan əməliyyatlara qadağa qoyanlar da var. Avropa Birliyinə daxil ölkələr bu problemin qarşısını vahid valyutaları olan avrodan istifadə etməklə alıblar. SSRİ dövründə də ittifaqa daxil olan ölkələrin hər biri vahid valyuta olan rubldan istifadə edirdilər.**



Maraqlıdır, bəs Azərbaycanda dollarla aparılan əməliyyatlar qadağan oluna bilərmi?

**İqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, qanunla bütün alış-veriş manatla edilməli, bunun əksini edənlər cəzalandırılmalıdır: "Qanunvericiliyə görə Azərbaycan ərazisində bütün alış-veriş milli valyuta - manatla həyata keçirilməlidir. Amma manata güvən olmadığına görə insanlar daşınmaz əmlakın da, digər qiymətli əşyaların da qiymətini dollarla müəyyən edirlər. Təbii ki, onlar dolları satışa çıxardıqları zaman günün məzənnəsinə uyğun manat ala bilərlər. Bu problem deyil. Amma qiymətlər manatla yox, dollarla müəyyən edilir və bazarın dollarlaşması prosesi sürətlə həyata keçir. Bunu da insanlara heç kim qadağan edə bilməz. Əgər mənim avtomobilim varsa, mən ona 10 min dollar qiymət qoyuramsa, kim gəlib mənə deyə bilər ki, siz buna 10 min dollar qiymət qoya bilməzsiniz. Satış günü isə dollarla ala bilsəm, onunla, ala bilməsəm, manatı dollara olan həmin günün məzənnəsi ilə ala bilərəm. Burada inzibati yollarla bazara müdaxilələrin daha da artdığı bir dönəmə qədəm qoymuşuq. Hökumət ancaq inzibati yollarla bazarda müəyyən düzəm yaratmağa çalışır. Bu da əks-effekt verir. Sovet vaxtı valyuta alveri hətta cinayət sayılırdı. İnsanın əlində valyuta tutulanda ona 8-10 il iş verilirdi. Amma valyuta əməliyyatları həmişə olub. Sovet dövründə belə olub, sovetin dağılmasından sonra da belə olub. Küçələrdə həmişə valyuta bazarı olub. Yəni bunun qarşısını ancaq inzibati yollarla almaq mümkün deyil. Dükanlarda ərzaqları, geyimləri dollarla satmaq qadağandır və bunu edən insanlar o vaxt da cəzalandırılırdı, indi də cəzalandırılır".

**Banklardan yalnız milli valyuta ilə vəsait verilməsini tələb etməklə iqtisadiyyat prinsiplərinin pozulacağını deyən iqtisadçı ekspert Rəşad Həsənov bunun heç bir nəticə verməyəcəyini bildirdi:** "Bəzi ölkələrdə banklar xarici valyutada kreditləri ölkəyə yalnız xarici valyuta gətirə bilən, idxalla məşğul olan şirkətlərə verir. Digər vətəndaşlara isə bu kreditlər milli valyutada verilir. Türkiyədə bu qaydalar tətbiq olunur. Amma Azərbaycanda banklar bir çox hallarda vəsaitləri xarici valyutaya cəlb edirlər. Təsəvvür edin ki, bank xarici maliyyə institutundan xarici valyuta alıb və bu vəsaiti vətəndaşa manatla verib. Manat isə il ərzində iki dəfə devalvasiyaya uğrayıb. Belə olan təqdirdə bank o vəsaiti necə geri qaytarmalıdır? Bu cür hallarda bankların dövlət zəmanəti ilə götürdüyü xarici borc dövlət tərəfindən ödənilməli olur. Biz bilirik ki, Azərbaycanda bank sistemi son 25 ildə bazar prinsiplərinin əsaslarına uyğun qurulmağa başlayıb. Bank sistemi SSRİ dağıldıqdan sonra çox ciddi inam itkisinə məruz qalmışdı. Hazırda vətəndaşın zamanla formalaşan inamı banklar üçün çətinlik törədir ki, yalnız milli valyutaya əmanət etdiyini açıqlasın. Çünki bank vətəndaşa yalnız milli valyutada pul götürə bilərsən deyirsə, bu o deməkdir ki, vətəndaş depozitlərini, əmanətlərini yerləşdirməkdən imtina edəcək. Belə olan təqdirdə isə bankların faktiki olaraq ölkədaxili maliyyə qaynaqları məhdudlaşır. Bank məcburdur ki, vətəndaşların maraqlarını nəzərə alaraq xarici valyutada əmanətləri qəbul etsin. Xarici valyutada qəbul edilən əmanətlər kredit formasında yerləşdirilməlidir. Əgər hansısa tənzimləmə aparılacaqsa, bu, sadəcə, hökumətin dəstəyi ilə aparıla bilər. Tutaq ki, devalvasiya baş verən zaman baş verən itkiləri hökumət qarşılayacaqsa, biz o zaman banka deyə bilərik ki, siz xarici valyutada verdiyiniz vəsaiti vətəndaşa, sahibkara milli valyutada təqdim edin. Biz sektora təzyiqlər edə bilmərik, bu doğru deyil".

**R.Həsənov xarici valyuta satışına məhdudiyyətlərin qoyulmasının mümkün olduğunu dedi:** "Bundan sonrakı dövrdə mümkündür ki, xarici valyuta ilə alqı-satqıya məhdudiyyətlər qoyulsun. Düşünürəm ki, prosesin dərinləşməsi fonunda Mərkəzi Bank, sadəcə, ixrac əməliyyatlarının iştirakçılarına xarici valyuta satılması tövsiyəsini verməlidir".

❑ **Günel MANAFLI**

# "İpoteka krediti" fırıldağı - banklar qanunsuz müqavilələr bağlayır...

## Ekspert bildirir ki, bəzi bankların əmanətçilərinin hesabına verilən kredit qanunaziddir, heç bir hüquqi qüvvəsi yoxdur...

**Bəzi banklar qanunsuz "ipoteka krediti" müqaviləsi bağlayırlar və əmanətçilərin pulunu təhlükə altına qoyurlar. Ekspert Əkrəm Həsənov bankların öz hesabına verdiyi kreditlərə aydınlıq gətirib. Onun sözlərinə görə, son dövrdə "Bank VTB"dən dollarla "ipoteka krediti" almış bir çox vətəndaş müraciət edib: "Məlumat var ki, bəzi digər bankların da analoji layihəsi var. Amma VTB-də bu layihə kütləvi xarakter daşıyır. Əslində bu layihə ipoteka krediti deyil, çünki ipotekadan əsər-əlamət də yoxdur. Sözügedən "ipoteka krediti"nin İpoteka Fondunun, yəni dövlətin xətti ilə verilən kreditlərlə heç bir əlaqəsi yoxdur. Bu, sırf VTB-nin öz hesabına, daha doğrusu, bankın əmanətçilərinin hesabına verilən kreditdir. Valyutası, bir qayda olaraq, dollardır. Halbuki ev və ya mənzil yalnız manatla alına bilər. Kredit tikilən binada mənzilin alınması üçün verilir. Tikinti şirkətləri qismində VTB ilə müqavilə bağlamış və H.Zərdabi prospektində bina tikən iki tikinti şirkətindən biri çıxış edir: FEBA MMF və ASP MTK. Təbii, həmin mənzilin Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyatı, başqa sözlə, "kupça"sı olmur. Çünki tikilmiş olduqda belə, bina hələlik dövlət komissiyasına təhvil verilməyib. Buna görə də həmin mənzilin ipotekası, girovu da mümkün deyil. "Kupça"sız daşınmaz əmlaka dair ipoteka müqaviləsi bağlamaq olmaz. Lakin VTB həmin mənzili özündə ipotekaya qəbul edilmiş kimi qeyd edir. Bunun üçün iki variantdan birini istifadə edir: ya borclu ilə ipoteka müqaviləsi bağlayır, ya da kredit müqaviləsində borclunun üzərinə gələcəkdə ipoteka müqaviləsi bağlamaq vəzifəsini qoyur, borclu isə bu vəzifəni icra etməyə də bilər. Əslində belə ipoteka müqaviləsi etibarsızdır, onun heç bir hüquqi qüvvəsi yoxdur".**



Ekspertin sözlərinə görə, VTB əslində təminatsız kredit verir, lakin bunu elə pərdələyir ki, guya kredit təminatlıdır və təminat qismində də alınan mənzilin ipotekası çıxış edir: "Borclunu da inandırır ki, guya mənzili girovdadır, ipotekadadır. Uzaqbaşı deyir ki, "krediti tam ödəməyincə tikinti şirkəti sənin "kupça" almağına şərait yaratmayacaq və mənzili əlindən alacaq". Lakin bu, ağ yalandır, mənzil girovda deyil. Mənzilin dəyəri tikinti şirkətinə tam ödənilib: bir qismini borclu, mənzilin sahibi öz hesabına, bir qismini isə VTB-dən alınmış kredit hesabına. Buna görə də tikinti şirkətinin mənzil sahibinə, bankın borclusuna hər hansı iradı ola bilməz və bina dövlətə təhvil verildiyi andan vətəndaşın "kupça" ala bilməsini təmin etməlidir. Tikinti şirkəti hər hansı şəkildə bankla borclunun münasibətlərinə müdaxilə edərək bankın tərəfini tuta bilməz. Kredit münasibətləri sırf bankla borcluya aiddir. Borclu krediti ödəməsə, VTB borclunu məhkəməyə verib kreditin ödənilməsini tələb edə bilər. Borclunun başqa əmlakı, yaxud özünün və himayəsində olan şəxslərin yaşayış minimumundan artıq gəliri varsa, krediti qaytara biləcək. Əks halda, kredit batacaq. Çünki alınmış mənzil borclunun yeganə mənzilidirsə, ona tutma yönəldilə bilməz. Əgər girov qoyulmayıbsa, yeganə mənzil vətəndaşdan alına bilməz. Sözügedən halda isə alınmış mənzil girov qoyulmayıb.

Beləliklə, VTB-nin krediti hesabına "kupça"sız mənzil almış vətəndaşlar krediti qaytarmasa, bank faktiki olaraq onlara heç nə edə bilməyəcək. Əgər borclunun rəsmi olaraq ikinci mənzili yoxdursa, mənzili də əllərindən ala bilməyəcək. Eyni zamanda bu yolla mənzil almış vətəndaşlar bilsin ki, VTB hər bir halda onları aldadıb. Çünki kreditin təyinatı əmlakın alınması olub. Əmlakın dəyəri manatla ödənilsə də, kredit vətəndaşa nədənsə dollarda verilib. Əslində vətəndaşın əlinə pul heç verilməyib də, VTB tərəfindən birbaşa tikinti şirkətinə köçürülüb, məlum məsələdir ki, dollarla deyil, manatla olub. Konstitusiya Məhkəməsinin 14 may 2015-ci il tarixli qərarına əsasən, hər hansı əmlakın dəyəri yalnız manatla ödənilməlidir. Bilə-bilə ki, vətəndaşa manat lazımdır, VTB ona krediti dollarla rəsmiləşdirib. Deməli, vətəndaş kredit müqaviləsini aldatma və vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlayıb. Belə müqavilə isə etibarsızdır".

**Ə.Həsənovun sözlərinə görə, buna görə də bu vəziyyətdə borclu vətəndaş VTB-yə öz iradəsini tam diqtə edə bilər:** "Belə ki, banka müəyyən güzəştlərə getməyi təklif edə bilər: məsələn, borcun cari deyil, əvvəlki məzənnə ilə manata çevrilməsi və sair. Bank buna getməsə, kredit müqaviləsinin etibarsız olması, mənzilinin isə girovda olmamasından istifadə edərək məhkəmə prosesinə başlayaraq VTB-ni darmadağın edə bilər. Bəs VTB niyə belə risk edib? Əlbəttə, nəyin bahasına olursa-olsun, krediti vermək və qazanc əldə etmək üçün. Normal banklar təbii ki, belə riskə getməz. Çünki nəticədə belə kreditlərin böyük hissəsi, bəlkə də hamısı qayıtmayacaq. Amma VTB-dəki bərbad idarəetmə və korrupsion sistem nəticəsində əmanətçilərin pulu ilə belə ağlasığmaz riskə qol qoyulub. Bankın əmanətçiləri pullarının necə riskli idarə edilməsini bilsin və nəticə çıxarsın".

**Ekspert qeyd edib ki, bu halda VTB və digər banklar Mərkəzi Bankın azı 2 normativ sənədini pozub:** ""Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" 9.4.5-ci bəndinə əsasən təminatı olmayan istehlak kreditləri ən riskli kredit növü hesab edilir. VTB maliyyə hesabatlarında belə "ipoteka kreditlərini" təminatlı kimi göstərərək sözügedən risk qrupuna aid etmir. Başqa sözlə, maliyyə göstəricilərini olduğundan xeyli yaxşı kimi göstərir. Digər tərəfdən, "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları"nın 11-ci bəndinə uyğun olaraq belə kredit ümidsiz hesab edildikdə,ödəniş 120 gündən çox gecikdirildikdə, onun üçün 100 faiz ehtiyat yaratmaq lazımdır. Çünki kredit təminatsızdır. Lakin böyük ehtimalla, VTB krediti təminatlı kimi göstərərək tələb olunduğundan xeyli az ehtiyat yaradır. Qeyd edim ki, bu "ipoteka krediti" mexanizmindən bəzi digər banklar da istifadə edir. Onları da üzə çıxarmaq lazımdır. Onların da borcluları yaranmış vəziyyətdəki üstünlüklərindən istifadə edərək banka öz iradəsini diqtə edə bilərlər".

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

*N 13 (6334) 19 yanvar 2016*



## Kosmosda çiçək yetişdirdilər

Beynəlxalq Kosmos Stansiyasında çalışan astronavtlar tarixdə ilk dəfə yerin cazibə qüvvəsinin olmadığı yerdə - vakkumda bir bitkinin çiçək açması üçün şərait yaradıblar. Amerikalı astronavt Scott Kelly 13 tac yarpağı olan narıncı rəngli çiçəyin şəklini paylaşaraq “Kosmosda yetişdirilən çiçək qarşınızdadır! Bəli, kosmosda başqa yaşayış növləri də var” sözlərini yazıb. NASA-dan ötən ay kosmosda yetişdirilməyə çalışılan bitkilər haqqında açıqlama verilərkən “zinya” adlı çiçəyin toxumlarının oraya aparılma səbəbi açıqlanmışdı. NASA əməkdaşlarından biri “zinya” çiçəyini gözəlliyinə görə deyil, xüsusiyyətlərinə görə kosmosda yetişdirmək istədiklərini demişdi. Həmin çiçəyin köməyi ilə astronavtlar cazibə qüvvəsi olmayan yerdə çiçəyin necə açdığına şahid olublar. Dekabrda bitki solmaq üzrə olsa da, qulluq nəticəsində o solmayıb və çiçək açıb. “Zinya” çiçəyinin yetişməsi 60-80 gün davam etdiyi üçün bu çox çətin proses olub. Həmin çiçəyin kosmosda yetişməsi orada pomidor yetişdirilməsi üçün ümidlər yaradıb.

# 30 il sonra canlandırdılar

Yapon alimlər Su ayısı adlı bir mikroskopik canlını -20 dərəcə temperaturda dondurduqdan 30 il sonra yenidən canlandırmağı bacarıblar. Antarktidada yaşayan su ayısı bir çox canlı üçün yaşamağın mümkün olmadığı şəraitdə yaşadığı üçün “ekstremofil canlı” olaraq tanınır. Bu canlılar çox məcbur olmadıqları zaman hərəkət etmirlər və bəzən özlərini dayandırırlar. Alimlər daha əvvəl də onurğasız canlıları 9 il dondurub, sonra canlandırmışdılar. Lakin 30 il rekord müddət hesab edilir. “Ekstremofil canlı”ların gizli həyatı haqqında məlumatlar əldə etməyə ümidlənən alimlər araşdırmanın nəticələrini “Cryobiology” adlı jurnalda çap ediblər.



# 70 il sonra meşədən çıxdı

Ailəsinin meşədə gizlənməsindən sonra dünyaya gələn Agafya Lykova adlı qadın 70 il sonra yaşadığı meşədən çıxaraq şəhərə gəlib. Bütün həyatını meşədə keçirən qadın ayağı ağrıdığı üçün xəstəxanaya aparılıb. Agafyanın ailəsi 1936-cı ildə meşədə gizlənib. Yaşlı qadın meşədə dünyaya gəlib və bu günə qədər orada yaşayıb. O, təcili hallarda polisə xəbər verməsi üçün ona verilən aparatdan istifadə edərək yardım çağırıb. 70 yaşlı qadın -40 dərəcə soyuqda ölməkdən qorxduğu üçün yardım çağırdığını deyib. Vertolyotla xəstəxanaya aparılan qadın İkinci Dünya müharibəsindən xəbərsiz olduğunu deyib. 80 il əvvəl Rusiyadan qaçan ailəsi ilə birlikdə meşədə yaşayan qadın yalnız torpaqda əkilən qidaları yediklərini deyib. 6 nəfərlik ailə ağacdan tikdikləri evdə yaşayıblar. 1988-ci ildə atasını itirdiyi üçün təkbaşına qalıb. Ötən ilin may ayında 77 yaşlı qonşusu və tək dostu geoloq Yerofei Sedovu itirib. Geoloq öldüyü zaman yanlarında heç kim olmadığı üçün onu təkbaşına dəfn etməyə məcbur qalıb. Məlumatlara görə, yaşlı qadın müalicəsi bitdikdən sonra meşədəki evinə qayıdacaq.






## WhatsApp istifadəçilərinə şad xəbər

WhatsApp yanvarın 18-dən tam pulsuz olub. Bu gündən servisdən istifadə üçün hər il alınan 99 sentlik abunə haqqı ləğv edilir. İlk dəfə bu xəbəri WhatsApp-ın təsisçisi Yan Kum Münhendəki texnoloji görüşdə deyib: “Biz istəmirik ki, insanlarda elə bir hiss yaransın ki, onlar bir gün dünya ilə danışa bilməyəcəklərini düşünsünlər. Dünyada 1 milyard insan hər gün ”WhatsApp" sayəsində ailə üzvləri və dostları ilə əlaqədə qala bilir. İndoneziyada yaşayaraq ailəsinin şəkillərini paylaşan atadan tutmuş, İspaniyada yaşayan və dostları ilə evdən yazışan tələbə qıza, yaxud pasiyentləri ilə messencerimiz vasitəsilə ünsiyyət saxlayan braziliyalı həkimə qədər hər kəs “WhasApp”a bel bağlayır".

Buna qədər “WhatsApp” istifadəçiləri messencerdən istifadə etdikləri birinci il ödəniş etmir, növbəti illərdə isə 0,99 sent ödəyirdilər (modern.az).





**QOÇ** - Günün ümumi mənzərəsi normaldır. Qəlbinizə yaxın olan insanlara qarşı səmimi və qayğıkeş olun. Əgər maddi durumunuz yaxşıdırsa, ehtiyac duyanlara bacardığınız qədər kömək edin.


**BUĞA** - Pulla bağlı uğurlarınız gözlənilsə də, qarşılıqlı münasibətlərdə və sağlıq durumunuzda xoşagəlməzliklər ola bilər. Bu amili nəzərə alıb davranışınıza və qidanıza fikir verin.


**ƏKİZLƏR** - Ulduzlar doğma və yaxınlarınızla soyuq davranışınızdan şikayətçidir. Bunu aradan qaldırmaq üçün digər işləri təxirə salmaq da olar. Əsas vaxtınızı sevimlilərinizlə keçirin.


**XƏRÇƏNG** - İxtiyarınızda olan bu təqvimdə keçmiş günahlarınızdan qurtulmağınız üçün bir sıra addımlar atmalı, ehtiyac olarsa, tövbə etməlisiniz. Uzaqda yaşayan doğmalarınızla əlaqə yaradın.


**ŞİR** - O qədər də səmərəli gün deyil. Lakin güc və potensialınızdan istifadə etməklə vəziyyətin axarını maraqlarınıza uyğunlaşdıra bilərsiniz. Ailədəki narahatçılığa özünüz son qoyun.


**QIZ** - Yaxşı olardı ki, fəaliyyətlə bağlı bütün işlərinizi təxirə salasınız. Münasibətlər zəminində bu qədər çatışmazlıqlar olduğu halda hansısa işə enerji itirməyə lüzum yoxdur.


**TƏRƏZİ** - Baxmayaraq ki hava soyuqdur, qəlbinizin istiliyi ətrafınızda olanları sizə qarşı daha da mərhəmətli edəcək. Nə vaxtsa rastlaşdığınız haqsızlıqları xatırlamaqdan əl çəkin.


**ƏQRƏB** - Ümumi atmosfer passiv olduğundan hansısa qeyri-adi işlərə girişməyin. Əsas enerjinizi qarşılıqlı münasibətlərə yönəldin. Səmimi insanlarla bir araya gəlmək əhvalınızı yüksəldəcək.


**OXATAN** - Yaxşı olar ki, gün boyu maliyyə məsələlərində riskli addımlardan çəkinəsiniz. Əks təqdirdə, aldadıla bilərsiniz. İstənilən situasiyada obyektiv qərar verməyə çalışın.


**OĞLAQ** - Qarşılıqlı münasibətlərdə rastlaşdığınız xoş ovqat digər məsələlərdə də irəliləyiş yaradacaq. Özünüzü cəmiyyətdən təcrid olunmuş hala salmayın. Həyatın gözəlliyini duyun.


**SUTÖKƏN** - Əslində yeni il sizin üçün bu gün “başlayır”. Çünki 2013-cü ildə nəzərdə tutduğunuz planların icrası günorta saatlarından start götürəcək. Varlanma ehtimalınız da var.


**BALIQLAR** - Bütün vücudunuzu bürüyən müəmmalara son qoyun. Tarix boyu belə hallar heç kimə uğur gətirməyib. Dünyanı düzəltməkdən əvvəl öz qüsurlarınızı aradan qaldırmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Acmır, yatmır və ağrımır

İngiltərədə yaşayan 7 yaşlı qızın avtomobil qəzasına düşməsinə baxmayaraq ağrı hiss etməməsi həkimləri təəccübləndirib. Olivia Fransort adlı qız 3 gün yatmadan və yorulmadan qala bildiyini, çox vaxt aclıq hiss etmədiyini deyir. Kiçik qızın üzərində araşdırma aparan həkimlər onun hüceyrələrinin adi adamlardan fərqləndiyini deyiblər. Olivianın altıncı xromosomu yoxdur. Bu xromosomun yoxluğu da insanlarda təhlükəyə qarşı qorxusuzluq yaradır. Xəstəliyin müalicəsi hələ ki tapılmayıb. Həkimlər Oliviani “robot qız” adlandırırlar. Çünki o, qorxunun və təhlükənin nə demək olduğunu bilmir. Bədəni polad qədər dayanıqlıdır və ağrı hiss etmir.



**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.